Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu

Bakı 2011

# Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu

***Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr***

**Bakı 2011**

**Tərtibçi:** **A.Abdullayeva**

**İxtisas redaktoru və**
**buraxılışa məsul:** **K.Tahirov,**
*Əməkdar mədəniyyət işçisi,*
*fəlsəfə doktoru*

**Redaktor:** **M. Cəfərova**

**Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu:** metodik tövsiyələr /ixtis. red. və bur. məs. K.Tahirov; tərt. ed. A.Abdullayeva; red. M. Cəfərova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011.- 102 s.

**© M.F.Axundov adına Milli Kitabxana, 2011**

# GİRİŞ

Turizm - müasir dünyanın qlobal əhəmiyyətə malik olan, sosial və iqtisadi əlaqələrini tənzimləyən, müxtəlif ölkələr və xalqlar arasında qarşılıqlı münasibətlər yaradan, biznes maraqlarının əhatə dairəsini genişləndirən sahədir. Dünyanın hər yerində turizmin inkişafına dövlətlər və sivilizasiyalar səviyyəsində böyük maraq göstərilir. Elə buna görə də, hazırda beynəlxalq maliyyə qurumları və təşkilatları turizmin inkişafına öz maraq və diqqətlərini artırırlar. Azərbaycan Respublikasının kifayət qədər imkanları və təbii-coğrafi potensialı vardır. Dünyada mövcud olan 11 iqlim qurşağının 9-nun Azərbaycanda olması bu ölkənin turizm üçün əlverişli bir məkan kimi tanınmasına müsbət təsir göstərmişdir. Elə bu faktın özü Azərbaycanın beynəlxalq turizm marşrutuna daxil olması üçün kifayət edir. Ölkəmizin dənizi, aranı, dağı, meşələri, çayları, bulaqları, gölləri, yaylaqları turistlərin buraya cəlb olunması üçün diqqəti çəkən obyektlərdir. Ölkəmizdə sahibkarlıq inkişaf etdikcə bu obyektlərin hər birində turizm mərkəzlərinin yaradılması imkanları artır.

Ulu öndərimizin möhkəm təməl üzərində əsasını qoyduğu sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sahəsində uğurlu islahatların aparılmasına geniş imkan yaratmışdır. Hazırda bu siyasətin uğurlu davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının turizm sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı sayəsində Azərbaycan artıq beynəlxalq səviyyədə turizm imkanlarını təqdim etməyə qadir bir ölkəyə çevrilmişdir. 2011-ci ilin "Turizm ili" elan edilməsi də bu diqqətin əsas göstəricisidir.

Təqdim edilən bu metodik vəsaitdə Azərbaycanda turizmin yaranması tarixindən, bugünkü inkişaf tendensiyasından bəhs edilmiş, turizmin təbliği məqsədilə kitabxanaların

qarşısında duran vəzifələrdən danışılmış, eləcə də turizmə aid rəsmi sənədlər, qanunlar, fərman və sərəncamlar, dövlət proqramları və digər əlavə materiallar və turizmə aid kitablar və dövri mətbuat nümunələri, internet ünvanları öz əksini tapmışdır.

Bu vəsait Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün nəzərdə tutulmuşdur. Nəşrlə bağlı təklif və iradlarınızı Milli kitabxanaya göndərən mütəxəssislərə əvvəlcədən minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 29
E-mail: contact@anl.az
Tel.: 493 98 96

# Azərbaycanda turizmin tarixinə qısa baxış

Dünya xəritəsində Azərbaycanın əlverişli bir məkanda yerləşməsi bu ölkənin bütün tarixi dövrlərdə diqqət mərkəzində olmasına ən başlıca səbəbdir. Belə ki, tarixin müxtəlif dövrlərində öz təbiət gözəllikləri, təbii resursları ilə, əlverişli coğrafi mövqeyi ilə seçilən Odlar yurdu Azərbaycan həm ticarət (istər su, istərsə də quru yolu ilə) əlaqələrinin, həm mədəni münasibətlərin, həm də hərbi çəkişmələrin geniş meydanı olmuşdur.

Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkətini ilk səyahətlər hesab etmək olar. Hələ eramızdan əvvəl Azərbaycanda olmuş səyyah və alimlərdən Plininin, Plutarxın, Heradotun, Ptolomey və Strabonun adlarını çəkə bilərik. İlk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədi daşımışdır. Antik dövrün tanınmış səyyah və coğrafiyaşünasları ilə yanaşı, IX-X əsrlərdə ərəb səyyahlarının Azərbaycana olan marağı, ölkəmizin hərtərəfli şəkildə öyrənilməsinə səbəb oldu.

Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək Yolu (BİY) üzərində mühüm dayanacaq kimi tanınan bir ölkə olmuşdur. Rusiyanın və Volqaboyunu Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaz, İran, Kiçik Asiya Hindistanla əlaqələndirən bu karvan yolu məhz Azərbaycandan keçirdi. Bu faktın özü Azərbaycan diyarına dünyəvi marağın əsas motivlərindən biri idi. İpək yolu trassı üzərində Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Nuxa (Şəki) Azərbaycanın şimalında mühüm beynəlxalq ticarət mərkəzlərinə çevrilmişdi.

Rusiyadan İrana və Hindistana gedən dəniz və quru yollarının ayrıcında yerləşən Bakının XIV əsrin ortalarında Qərblə Şərq arasında ticarət əlqələrində böyük rolu var idi. Ağ dənizdən Volqa çayı vasitəsilə Xəzər dənizinə və sonra İran və

Hindistana aparan Volqa-Xəzər dəniz yolu, Bakıda yeni karvansaraların tikilməsinə səbəb oldu, Bunların ölçüləri əvvəlki dövrlərdə inşa edilənlərə nisbətən daha böyük idi. Müxtəlif zamanlarda Azərbaycana səyahət edən tarixçilər və səyyahlar bu karvansaraları öz səyahətnamələrində qeyd etmişlər.

XIX əsrin sonları və XX əsrin əvvəllərində Bakının karvansaralarında qonaqlar üçün komfort şərait yaratmaq məqsədi ilə karvansara binalarında yenidənqurma işləri aparılaraq, onlardan mehmanxana kimi istifadə etmişlər. Müxtəlif dövrlərdə Azərbaycanda olmuş səyyahların, tacirlərin, diplomatların (Marko Polo, Ryui Qonzales Klaxvio, Afanasi Nikitin, İosafat Barbaro, Ambrocco Kontarini, Antoni Cenkinson, Vincensi Alesandri, Sadko, Övliya Çələbi, Fedor Kotov) səyahətnamələrində olan qeydlər xalqımızın hələ o zaman ümumdünya tarixi tərəqqi prosesində layiqli yer tutduğunu göstərir.

Rusiya imperiyası tərkibinə daxil olduqdan sonra Azərbaycanda turizm-ekskursiya işinin inkişafı Rusiya ilə bağlı olmuşdur. Azərbaycanda mütəşəkkil turizmin tarixini 1908-ci ilə aid etmək olar. Belə ki, 1908-ci ildə Krım-Qafqaz dağ klubunun filiallarından biri Bakıda açılmışdı. Bakı bölməsi həm uzaq, həm yaxın ekskursiya səfərlərinin təşkili ilə məşğul olurdu. XIX əsrin sonu XX əsrin əvvəllərində turizmin inkişafına elmi və həvəskar cəmiyyətlər (coğrafiya cəmiyyəti, təbiəti sevənlər cəmiyyəti, xalq universitetləri cəmiyyəti və b.) diqqət yetirməyə başladılar.

1922-ci ildə Bakıda ilk ekskursiyaçı dərnəkləri yaradıldı. Ekskursiyalar əsasən Bakının zavod, fabrik və neft mədənlərində çalışan fəhlələrin digər istehsalat sahələri ilə tanış olmaq məqsədi daşıyırdı. Yay aylarında Xəzər sahilinə – Mərdəkan, Şüvəlan, Buzovna, Türkan, Zığ, Artyom adası və Şıx zolağına istirahət məqsədilə ekskursiyalar təşkil olunurdu. Artıq Sovet İttifaqının bir sıra şəhərlərindən Bakıya gələn

səyahətçilərlə yanaşı, ilk xarici turist qruplarının qəbulu turizmin inkişafı sahəsində mühüm hadisələrdən biri olmuşdu. 1927-ci ilin iyulunda Bakıya gəlmiş ilk xarici turistlər (10 alman tələbəsi) Nurenberq-Vyana-Buxarest-İstanbul-Batum-Tiflis-Bakı-Ənzəli-Tehran-Bombey marşrutu ilə səfərə çıxanlar idi. Elə həmin ilin yay aylarında Bakıya gələn digər ilk xarici turist qrupu Amerikadan idi. 1927-ci ildə 450 belə ekskursiya gəzintisi keçirilmişdi. Bu illərdə respublikamızda turizm ekskursiya fəaliyyəti ilə məşğul olan ən fəal Həmkarlar İttifaqları olmuşdur. Azərbaycanda 1929-cu ildən Proletar Turizm və Ekskursiyalar Cəmiyyətinin (PTEC) bölməsi kimi fəaliyyət göstərən AzPTEC 1935-ci ildən Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi nəzdində fəaliyyətə başladı. Bununla əlaqədar Az.SSR Xalq Komissarları Şurasının 11 may 1935-ci il tarixli 476 saylı qərarına əsasən turizm ekskursiya işini daha da yaxşılaşdırmaq məqsədilə bir sıra tədbirlər görüldü. Kirovabad (indiki Gəncə) şəhərində Az.PTEC Kirovabad raysovetinin bazası yaradıldı. Hacıkənddə turbaza üçün 3 ev kirayəyə götürüldü. Göygölün sahilində isə 20 yerlik çadır düşərgəsi təşkil olundu.

Turistlərin səyahətlərinin və istirahətlərinin maraqlı keçməsi üçün turbazalarda velosiped və atlarla yürüşlər və gəzintilər təşkil olunurdu. 1936-cı ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsi turizmin ölkədə gələcək inkişafının könüllü özfəaliyyət cəmiyyəti çərçivəsində az səmərəli olduğunu nəzərə alaraq, 17 aprel 1936-cı il tarixli Qərarı ilə Proletar Turizmi və Ekskursiyalar Cəmiyyətini ləğv etdi. 1940-cı ildən turizm sahəsində fəxri adlar tətbiq olunmağa başladı. Xüsusi xidmətlərə görə fərqlənənlər“SSRİ turisti” döş nişanı ilə təltif olunurdular. İkinci dünya müharibəsi illərində bütün SSRİ-də olduğu kimi respublikamızda da turizm ekskursiya fəaliyyəti dayandırıldı. Müharibədən sonrakı illərdə idman, özfəaliyyət, ailəvi və uşaq turizmi geniş vüsət tapmağa başladı. 1950-ci il sentyabr ayında Bakı turist bazası yaradıldı. O vaxtlar bu baza Nizami adına

istirahət parkında yerləşdirilmişdi. 1957-ci ildə Mingəçevirdə və Hacıkənddə ,1958-ci ildə Zaqatalada, 1960-cı ildə Şuşada və Göygöldə turist bazaları fəaliyyətə başladı. Qeyd etmək lazımdır ki, Azərbaycan Turizm ekskursiyalar idarəsi 1962-ci ildən Turizm üzrə Azərbaycan Respublika Şurası, 1969-cu ildən isə Turizm Ekskursiyaları üzrə Azərbaycan Respublika Şurası adlandırılmışdı. Bakı zəhmətkeşlərinin yay istirahətinin təşkili üçün 1962-ci ildən Nabranda (Xaçmaz rayonu) Bakı turist bazasının filialı kimi 150 nəfərlik "Sputnik" turist çadır düşərgəsi ,1963-cü ildə Bakıda turist klubu, Nabranda "Xəzər" turist bazası, 1965-ci ildə Bakıda, iki ildən sonra Gəncədə, Sumqayıtda, 1969-cu ildə Naftalanda və Bakının Mərdəkan qəsəbəsində ekskursiya büroları yaradılmışdı. 1970-ci ildə Zaqatalada və 1972-ci ildə Şuşada turist bazalarının yeni əsaslı binaları, 1971-ci ildə Xankəndində, 1972-ci ildə Mingəçevirdə ekskursiya büroları, 1975-ci ildə Qəbələdə Qafqaz və Xaçmaz rayonunun Nabran bölgəsində "Dostluq" turist bazası, elə həmin il Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verildi.

Naxçıvanda 1978-ci ildə ilk turizm təşkilatı (Səyahətlər və ekskursiyalar bürosu) yaradıldı. 1970-1987-ci illər ölkədə sosial turizmin perspektiv inkişafı ilə xarakterizə olunurdu. Xarici turizmin maddi-texniki bazasını genişləndirmək məqsədilə 1973-cü ildə Bakıda Azərbaycan Respublikasında ən böyük mehmanxana kompleksi olan 1942 yerli "Azərbaycan" mehmanxanası istifadəyə verildi. 1978-ci ildə "İnturist" Səhmdar cəmiyyətinin tabeliyində 200 yerlik komfortlu "Moskva" mehmanxanası da əlavə edildi.

Turizm sahəsi ilə məşğul olan mütəxəssislərin fikrincə Azərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə 1987-ci ildə nail olmuşdur. Həmin il respublikaya xarici ölkələrdən 50, SSRİ-nin müxtəlif bölgələrindən isə 250 minə yaxın turist gəlmişdir. Respublikamıza turist axını gücləndiyindən Lənkəran və Mingəçevir şəhərlərində hərəsi 300, Şuşa şəhərində 200

yerlik yeni turist mehmanxanalarının tikintisinə, Bakı şəhərindəki Qarabağ turist mehmanxanasında isə yenidənqurma işlərinə başlanıldı.

Azərbaycan Respublikasında turizmin inkişafında 1983-cü il ən yadda qalan il olmuşdur. O vaxtkı SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləmiş Heydər Əliyev cənablarının təşəbbüsü və rəhbərliyi ilə Xəzərin Azərbaycan sahillərində Ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması barədə müvafiq qərar qəbul edilmişdir. Bundan sonra Azərbaycan Respublikası Nazirlər Sovetinin 1984-cü il 2 oktyabr tarixli 381 saylı Qərarına əsasən Azərbaycan Respublikasında 2000-ci ilə qədər Turizmin inkişaf sxemi qəbul olunmuşdur. 1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətində və onun ətrafında baş verən hadisələr nəticəsində Azərbaycana daxili və xarici turistlərin axını xeyli azalmışdır. Xankəndi, Şuşa, Sumqayıt sonra isə Bakıda fövqəladə vəziyyətin tətbiqi, əslində respublikanın bu regionlarında bir sıra turizm təşkilatlarının fəaliyyətlərinin dondurulmasına səbəb oldu. Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri düşmənçilik siyasəti Azərbaycana yüz minlərlə qaçqının gəlməsi ilə nəticələndi. Respublika hökumətinin qərarı ilə 1988-ci ilin dekabrında Ermənistandan qovulmuş azərbaycanlıların respublikanın turist bazalarında yerləşdirilməsinə başlanıldı.

1990-cı ilin I rübündən etibarən Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu. Müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində başqa problemlərin yaranmasına da səbəb olmuşdur. Məsələn, Həmkarlar ittifaqları sistemində mövcud olan 10 turist bazasının ikisi işğal olunmuş ərazilərdə qalmış, qalan yerlərdə isə məcburi köçkünlər yerləşdirilmişdir. 1991-ci ilin sentyabrında mövcud olan xarici turizm üzrə idarə ləğv olunmuş, onun yerinə isə Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xarici Turizm Şurası yaradılmışdı.

# Turizmin inkişaf tendensiyası bu gün

## AZƏRBAYCAN

**Ərazisi:** 86.6 min km$^2$ (dünyada 111-ci yer)
**Əhalisi:** 9 mln. nəfər
**Paytaxtı:** Bakı (əhalisi 3 mln. nəfərə yaxın)
**Dövlət dili:** Azərbaycan dili
**Dini:** İslam
**Milli pul vahidi:** Manat
**İnkişaf etmiş şəhərləri:** Sumqayıt, Gəncə, Qəbələ, Şəki
**Milli mətbəxi:** aş, dolma, kabab, piti, küftə-bozbaş, qutab, düşbərə və s.

Turizmin inkişafı Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilməklə iqtisadi tərəqqi və yüksəlişin mühüm amili kimi nəzərdən keçirilir. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu potensialı düzgün qiymətləndirərək kifayət qədər investisiya tələb edən turizmin tənəzzüldən çıxarılması və inkişafı üçün kompleks tədbirlər həyata keçirmişdir. Ulu öndərimizin möhkəm təməl üzərində əsasını qoyduğu sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sahəsində uğurlu islahatların aparılmasına imkan yaratmışdır. Turizmin inkişaf tendensiyası ilk növbədə ölkənin ali qanunvericilik aktlarında öz əksini tapmışdı. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edilmiş, 27 iyul 1999-cu ildə ulu öndər Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalamışdır. Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**Turizm** – Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti

olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri);

**turist** – istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, 24 saatdan 12 ayadək müddətdə müvəqqəti olan şəxs;

**tur** – konkret müddətdə konkret marşrut üzrə fərdi və ya qrup halında səfərdən ibarət olan, turizm məhsulunun vauçer şəklində satılan forması.

Bu sahədə vahid, sistemli və ardıcıl dövlət siyasətinin həyata keçirilməsi məqsədilə Ümummilli liderimiz 18 aprel 2001-ci il tarixdə "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqda" fərman imzalamışdır. Qısa müddətdə beynəlxalq turizm təşkilatları ilə əlaqələr yaradılmış, respublikamız bir sıra mötəbər görüşlərdə, eləcə də dünyanın ən böyük turizm sərgilərində təmsil olunmuş, turizmin maddi bazasının möhkəmləndirilməsi məqsədilə müvafiq addımlar atılmışdır.

2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının (ÜTT) XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv olmuşdu. Bu isə, öz növbəsində, respublikamıza turizm fəaliyyəti üzrə tövsiyələr və praktiki kömək edilməsinə imkan yaratmışdı. 2001-ci ildə ilk dəfə olaraq Azərbaycanı tam genişliyi ilə təbliğ edən "Welcome to Azerbaijan" adlı xüsusi disk hazırlandı və ÜTT-nin Baş Assambleyasına təqdim olundu. Bununla yanaşı, diskin "Turizm in Azerbaijan" adlı veb səhifəsi yaradıldı.

Azərbaycanın turizm potensialını dünyada tanıtmaq məqsədi ilə 2002-ci ildə www.azerbaijan.tourism.az saytı işlənib hazırlanmışdır. 2002-ci ildə ilk dəfə Bakıda xarici ölkələrin turizm şirkətlərinin iştirakı ilə Beynəlxalq Turizm Sərgisi təşkil olunmuş və ÜTT-nin dəstəyini qazanmışdı. Beləliklə, müstəqil Azərbaycan Respublikası bütün dünyada turizm məkanı kimi qəbul olunmuş və tanınmağa başlamışdı. Görülən bu işlər nəticəsində ölkəmizə gələn turistlərin sayı ildən ilə artmışdır.

Ölkədə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə respublika Prezidentinin 2002-ci il 27 avqust tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olunmuşdu.

Artıq XXI əsrin başlanğıcında Bakıda, Gəncədə, Naxçıvanda və ölkənin digər şəhərlərində xarici qonaqları qəbul edə bilən müasir mehmanxana və hotellər fəaliyyət göstərirdi. Respublikamızın bütün regionlarını əhatə edən 100-dən artıq turizm firması xarici turistlərin qəbulu və yerli əhaliyə turist xidməti ilə məşğul olmuş, 149 mehmanxana rəsmi qeydiyyatdan keçmişdir. Həmin hotellərdə yerlərin ümumi miqdarı 5000-dən artıqdır. Turizm üçün əlverişli regionlarda müasir səviyyəli özəl müalicə və istirahət mərkəzləri istifadəyə verilmişdir. Respublikamıza gələn xarici qonaqların sayı 1 milyon nəfəri ötüb keçmişdir.

2003-cü ildə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında Prezident fərmanları ölkə iqtisadiyyatının, o cümlədən turizm sektorunun inkişafı yolunda mühüm addımlar olmuşdur. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir.

Azad İqtisadi Zonaların (AİZ) yaradılması turizmin inkişafına müsbət təsir edən amillərdən biridir. Azərbaycanda Azad İqtisadi Zonaların (AİZ) yaradılmasında əsas məqsəd

milli təsərrüfatların dünya iqtisadiyyatına inteqrasiyasıdır. Bu zonaların layihələşdirilməsi və fəaliyyətinin təşkili üzrə işlər beynəlxalq ticarətdən yararlanma əsasında və Avropa İqtisadi Cəmiyyətinin tələblərinə uyğun olaraq həyata keçirilir. Müxtəlif ölkələrdə AİZ yaradılma təcrübəsi göstərmişdir ki, onlar regionun inkişafı faktoruna çevrilə bilər və zonadan daxili iqtisadiyyatla dünya bazarı arasında şlüz kimi istifadə olunması, təsərrüfatçılığın yeni formalarının işlənməsi, yerli və xarici sahibkarların təsərrüfat fəaliyyəti üçün güzəştli şəraitlərin yaradılması kimi bir sıra iqtisadi məsələləri həll edə bilər.

2002-ci ildən etibarən "Azerbaijan Review" jurnalı rus və ingilis dillərində nəşr edilir. Respublikamızda turizm sahəsində görülən işlər haqqında ayda bir dəfə nəşr edilən "ATN" qəzetində məlumatlar verilir. Adları çəkilən reklam-çap məhsulları Beynəlxalq turizm sərgilərində sərgi iştirakçılarına və ziyarətçilərə, respublikamızın xarici ölkələrdəki səfirlik və nümayəndəliklərinə çatdırılır.Eyni zamanda Respublikamızın turizm potensialını əks etdirən reklamlar xarici ölkələrdə nəşr edilən turizm xarakterli jurnallarda yerləşdirilir. ("ABTA", "Travel İQ", "Faints and Projects", "TTG Russia", "Travel Unravelled", "Qde otdıxatğ", "Otdıx v Rossii" və "World Travel Guide").

Azərbaycanda ilk dəfə olaraq 2003-cü ildə 26 sentyabr tarixində 1-ci Turizm Filmləri Festivalı keçirilmişdir. Tədbirin keçirilməsi ilə bağlı işlər haqqında məlumat vermək üçün kütləvi informasiya vasitələrinin iştirakı ilə mətbuat konfransı təşkil olunmuş və dövlət və özəl qurumların rəhbərlərinin, xarici qonaqların iştirakı ilə keçirilən festivala turizmlə bağlı hazırlanmış 70-dən artıq iş təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının 30 yanvar 2006-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Gənclər İdman və Turizm Nazirliyi ləğv edilərək Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əsasında

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır. Respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyi bir sıra tədbirlər həyata keçirir. Nazirliyin sifarişi ilə son beş il ərzində ölkəmizin turizm imkanlarını əks etdirən qırxdan çox reklam-çap məhsulları hazırlanmışdır. Bunlar: "Turistlər üçün məlumat" kitabçası, "Azərbaycan" açıqça dəsti, "Azərbaycanın otelləri", "Azərbaycanın tarixi və arxitektura abidələri", "Bakının teatr və muzeyləri" bukletləri, "Azərbaycan" və "Bakı" fotoalbomları, "İpək Yolu", "Xalçaçılıq" kitabçaları, Azərbaycanın, Şuşanın və Qarabağın turist xəritələri, "Azərbaycana Xoş Gəlmisiniz" CD diski və DVD formatda 10-20 dəqiqəlik filmlərdir. Qeyd olunan nəşrlər, CD və DVD-lər azərbaycan, ingilis, alman, ərəb, yapon, və rus dillərində hazırlanmışdır.

Azərbaycan Respublikasının turizm sənayesi üçün müasir beynəlxalq tələbələrə cavab verən mütəxəssislərin hazırlanması; müxtəlif təhsil formalarını tətbiq etməklə yüksək mədəni və vətəndaş fəallığı ilə dərin peşə biliyini özündə birləşdirən yüksək ixtisaslı mütəxəssislər hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13 fevral 2006-cı il tarixli 45 saylı Qərarına əsasən Azərbaycan Turizm İnstitutu yaradılmışdır.

Dünya ölkələrində olduğu kimi, hər il Azərbaycanda da 27 sentyabr "Ümumdünya Turizm Günü" kimi qeyd olunur. Həmin gün təşkil olunan tədbirlər çəriçivəsində həmçinin müxtəlif mövzularda - turizm sahəsində mövcud problemlər və onların həlli yollarının müzakirəsi, turizm sahəsində xidmət səviyyəsinin yaxşılaşdırılması, turizm infrastrukturunun yaradılması və s. mövzusunda "Ümumrespublika Daxili Turizm Konfransları" da keçirilmişdir. Eləcə də, bu müddət ərzində turizm şirkətləri, turist xidməti obyektlərinin iştirakı ilə Daxili Turizm Sərgisi də keçirilmişdir.

2009-cu il aprel ayında Azərbaycan Turizm Şirkətləri Assosiasiyası təsis edilmişdir. Turizm şirkətlərinin fəaliyyətinin

inkişaf etdirilməsi, onların işində mövcud olan problemlərin aradan qaldırılması və turizm şirkətlərinin mənafeyinin qorunması, vahid şəkildə yerli və beynəlxalq tədbirlərdə iştirak etmək məqsədilə Turizm Şirkətləri Assosiasiyasının təsis edilməsinə zərurət yaranmışdır. Turizmin inkişaf etdiyi bütün ölkələrdə belə bir qurum fəaliyyət göstərir. 250-yə yaxın turizm şirkətinin fəaliyyət göstərdiyi Azərbaycanda da bu assosiasiyanın təsis edilməsi mühüm addım hesab olunur..

Azərbaycan Respublikasında turizmin daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2011-ci ilin “Turizm ili” elan edilməsi haqqında 15 fevral 2011-ci il tarixində Sərəncam imzalaması təbii ki, turizmin inkişafı üçün daha böyük imkanlar açdı.

2011-ci il Turizm ilində əsas məqsədlərdən biri Azərbaycana gələcək turistlərin sayını artırmaqdır. Mədəniyyət və Turizm Nazirliyinin  Turizm sektorunda həyata keçirilən tədbirlər nəticəsində keçən il Azərbaycanda ilk dəfə olaraq 1 milyon 900 mindən artıq turist gəlib.

2011-ci ildə Bakıda X Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi (AITF-2011) keçirilmişdir. 150-dən çox şirkət iştirak etmiş, habelə 23 ölkə və 55 istiqamət təqdim edilmişdir.

Bu sərgi ilə paralel olaraq II Ümumrespublika Daxili Turizm Sərgisi də keçirilmiş, 18 regiondan təxminən 100 şirkət təmsil olunmuş, Azərbaycanın regional istirahət zonaları, sanatoriyaları və mehmanxanaları nümayiş etdirilmişdir.

# Turizmin kitabxanalarda təbliği

Azərbaycanda turizm sektoru sürətlə inkişaf etməkdədir. Ölkəmiz artıq dünya turistləri üçün cəlbedici məkana çevrilmişdir. Həyatımızın bütün sahələrinə nüfuz edən informasiya kommunikasiya texnologiyaları turizm sahəsində də geniş tətbiq olunmaqdadır. Müasir dövrdə turizmlə bağlı ənənəvi təbliğat vasitələri, məsələn, çap məhsulları, beynəlxalq sərgilərdə iştirak, reklam çarxlarının istehsalı ilə yanaşı, elektron resursların da rolu artmışdır. Artıq turizm üzrə inkişaf etmiş ölkələrin əksəriyyətində elektron turizmin xidmətlərindən istifadə geniş yayılmışdır. İnsanlar turist səfərinə getmək istədikləri məkanlar, oradakı xidmətlər və s. barədə İnternet vasitəsilə ətraflı məlumat alır, bəyəndikləri məkanda yer seçib pulunu da elektron köçürmə yolu ilə ödəyirlər.

Ölkəmizə gələn turistlərə yüksək standartlara uyğun xidmətin göstərilməsi isə bir çox faktorlardan asılıdır. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu xüsusi qeyd etmək lazımdır. Turizm sektorunda ekskursiya xidməti mühüm əhəmiyyət kəsb edir. Bu xidmət informasiya-məlumatlandırıcı, təbliğat vasitəsi olmaqla yanaşı, həmçinin təşkilati, vasitəçi, ticarət, idman-əyləncə, bəzi hallarda operativ-nəzarət fəaliyyətini də əhatə edir. Ekskursiyalar əvvəlcədən planlı şəkildə həyata keçirilməlidir. İlk növbədə hər bir şəhərdə və rayonda mövcud olan gəzməli, görməli yerlər, tarixi mədəniyyət abidələri müəyyənləşdirilməli, turistlərdə olduqları region haqqında ümumi mənzərə yarada biləcək informasiya onlara çatdırılmalıdır. Ekskursiya rəhbəri ekskursiya zamanı turistlərə hər bir abidə barəsində, ekskursiya təşkil edilən yer barəsində ətraflı məlumat verməli, onların suallarını cavablandırmalıdır.

Yaxın məsafəli və qısa müddətli səyahətlər zamanı ekskursiya fəaliyyəti məhdudlaşır və turistlər yalnız gəldiyi yerin tarixi və mədəni obyektləri ilə tanış ola bilirlər. Belə hal-

da informasiya-məlumatlandırıcı və reklam-təbliğat işi üstünlük təşkil edir. Təşkil olunmuş tədbirlərin proqram və tərkibindən asılı olaraq bələdçilər bu işdə mühüm rol oynayırlar. Ekskursiya bələdçisi tədbirin əsas təşkilatçısı və icraçısı olur, turistlər hər hansı bir obyektə, muzeyə baş çəkdiyi zaman o, tərcüməçi kimi də çıxış edir. Ekskursiya xidmətinin keyfiyyəti bu gün ilk növbədə bu sahədə çalışan mütəxəssilərin ixtisas səviyyəsi, peşə bilikləri, təcrübəsi, təşkilatçılıq bacarığı ilə müəyyən edilir. Böyük bədii qalereyalar, ixtisaslaşmış muzeylər, sərgi salonları, yarmarkalar və digər turizm müəssisələri öz işini mükəmməl bilən ixtisaslı ekskursiya bələdçilərinin xidmətlərindən istifadə edirlər. Bəzən yüksək xidmət səviyyəsini saxlamaq üçün ekskursiya bələdçisindən səbr, yüksək ünsiyyət mədəniyyəti və nəzakət tələb olunur. Böyük qruplarda turistlərin bir qismi üçün bədii qalereyalar, digəri üçün tarixi abidələr, üçüncülər üçün isə ticarət obyektləri maraqlı ola bilər. Hamının istəyini yerinə yetirmək üçün bələdçi vaxtı elə bölüşdürməlidir ki, hər bir turist istədiyi yerə gedə bilsin və ekskursiyadan razı qalsın. Bir sıra mədəniyyət müəssisələri ilə yanaşı kitabxanalar da öz fəaliyyətində turizmin təbliğinə xüsusi diqqət yetirməlidirlər. Burada ən çox məsuliyyət region kitabxanalarının üzərinə düşür. Hər bir region kitabxanası ilk növbədə öz diyarının təbliğini düzgün və operativ şəkildə həyata keçirməlidir. Kitabxanalarda turizmin təbliği ilə əlaqədar müxtəlif sərgi və guşələrin, məsləhət vitrinlərinin hazırlanması, diyarşünaslıq kartotekasının yaradılması, təqdimat mərasimlərinin keçirilməsi, sual-cavab gecələrinin, söhbətlərin təşkili, konfransların keçirilməsi məqsədəuyğun olardı.

Respublikada turizmin inkişafı bu sahə üzrə daha geniş miqyasda ədəbiyyatın yaranmasına səbəb olmuşdur. Turizmin təbliği məqsədilə Azərbaycan, rus, ingilis dillərində müxtəlif elmi-kütləvi ədəbiyyat, fotoalbomlar, bələdçi kitabçalar, buklet, prospekt, atlas və xəritə-sxemlər (“Azərbaycan”, “Азербайджан”, “Welcome to Azerbaijan”, “Azərbaycan

olduğu kimi", "Bakı", "Böyük İpək Yolu", "Azərbaycan turizm regionları", "Azərbaycan tarix və arxitektura abidələri", "Bakının otelləri", "Bakının əyləncə mərkəzləri və restoranları" və s.) nəşr edilmişdir. "Turizm yenilikləri" qəzeti, "Azerbaijan review" jurnalı buraxılır. Azərbaycanın mənsub olduğu zəngin mədəniyyəti, tarixi, adət-ənənələri, turizm potensialı və digər sahələri əks etdirən bələdçi kitabların hazırlanaraq müxtəlif xarici dillərdə çap olunması ölkəmizin həm daxildə, həm də beynəlxalq miqyasda təbliğ olunması istiqamətində atılan mühüm addımlardan biridir. Son vaxtlar təcrübədə daha çox belə nəşrlərin – kitabların, yeni nəşrə başlamış jurnalların təqdimat mərasimlərinə rast gəlirik. **Belə təqdimat mərasimi** aparıcının 3-5 dəqiqəlik giriş sözü ilə başlayır. O, iştirakçıları salamlayaraq, nəşrin mövzusu, təqdimatın məqsədi haqqında məlumat verir. Aparıcı təqdim olunan nəşrin ya özünü, ya da foto şəklini nümayiş etdirir. İnformasiya mərkəzi olan kitabxanalarda proyeksiya aparatının köməyilə ekranda təqdim olunan nəşrin (kitab və ya jurnal) elektron variantı göstərilir. 10-15 dəqiqə ərzində nəşrin kimlər üçün nəzərdə tutulduğu haqqında danışılır və elektron variantda içindəkilər (mündəricatı) göstərilir. İştirakçılara nəşrin yerləşdiyi İnternet ünvanlar çatdırılır. Sonra oxucularla dialoq aparılır. Təqdim edilən nəşrin əhəmiyyəti haqqında rəy və mülahizələr öyrənilir və mövzuya uyğun suallar verilir. 5-10 dəqiqəlik son sözdə nəşrin əhəmiyyətindən bir daha danışılır, nəşrin qiyməti, hardan almağın mümkünlüyü haqqında məlumat verilir. Tədbirdə müəlliflər, tərtibçilərin iştirak etməsə daha məqsədəuyğun olardı, çünki ortaya çıxan bir çox sualları yalnız onlar daha dəqiq və dolğun cavablandıra bilər.

Tədbirdən əvvəl elan hazırlanır. Elanda kitabın müəllifi, jurnalın tərtibçi və redaktoru qeyd edilməklə annotasiyası yazılır, təqdimatın keçirilmə yeri və vaxtı göstərilir. Bundan başqa imkan daxilində nəşr haqqında buklet və dəvətnamələr hazırlamaq olar. Dəvətnamələr əlaqədar təşkilatlara göndərilir.

Şifahi təbliğatın təsirli formalarından olan "**Sual-cavab gecələri**"nin təşkili maraqlı tədbirlərdən biridir. Tədbirin xarakterini müəyyən edib hazırlıq proseslərinə başlanır, haqqında elan verilir. Elanda gecənin keçiriləcəyi yer və vaxt göstərilir. Sualların qabaqcadan hazırlanması, tədbir zamanı yeni sualların da ortaya çıxmasını istisna etmir. Turizmə aid "Azərbaycanda turizm: inkişaf və perspektivlər", "Turizm üzrə yeni layihə və proyektlər", "Regionda turizmi necə inkişaf etdirməli?", "Doğma diyarı tanıyaq" və s. mövzularda sual-cavab gecəsi keçirmək olar. Qoyulan sualların əhatəli şəkildə işıqlandırılmasını, müzakirəsini, doğru cavablandırılmasını təmin etmək üçün turizm üzrə mütəxəssislər cəlb olunmalıdır.

Məsələn: "Doğma diyarı tanıyaq" mövzusunda keçirilən sual cavab gecəsində aşağıdakı suallar ətrafında müzakirələr gedə bilər:

- Sizin şəhərinizdə turizm necə inkişaf etmişdir?
- Şəhərinizdə turistləri daha çox cəlb edən hansı məkanlar var?
- Turizmin təbliğində kitabxanalar iştirak edirmi?
- Siz şəhərinizi turistlərə necə təqdim edərdiniz?
- Şəhərinizin tarixi, maddi-mədəni sərvətləri ilə tanışsınızmı?
- Siz Azərbaycanı turizm məkanı kimi necə görmək istərdiniz?

Sual-cavab gecəsi ona yekun vurulması ilə bitir. Gecədə iştirak edənlərin cavablarının auditoriyanı nə dərəcədə qane etdiyini, gələn gecəni hansı mövzuya həsr etmək lazım gəldiyini öyrənməklə başa çatır. Verilən suallara daha məzmunlu cavab vermək üçün sual-cavab gecələrində əyani, illüstrasiya materiallarından istifadə etmək, bu məsələlərin geniş izahı verilmiş ədəbiyyatı dinləyicilərə tövsiyə etmək çox faydalıdır.

Kitabxanaya yeni daxil olan turizmə dair ədəbiyyatın təbliğində **"Yeni daxil olmuş ədəbiyyatın informasiya bülleteni"nin** əhəmiyyəti böyükdür. Bülletenə müəyyən dövr

ərzində kitabxanaya daxil olan bütün yeni kitabların təsviri və kitabxanaya daxil olan dövri mətbuat nümunələri haqqında da məlumat verilir. Girişdə bülletenin quruluş prinsipi, işlədilmiş şərti işarələr və ixtisar edilmiş sözlər izah edilir, turizmə dair materiallar seçilib müəlliflərin (sərlövhənin) əlifbasına görə düzülür. Oxucular tərəfindən operativ istifadə olunmaq üçün informasiya bülleteni həmçinin xidmət ərazisində yerləşən turizm işi ilə məşğul olan idarə və müəssisələrə, turizm informasiya mərkəzlərinə göndərilir.

Turizmlə əlaqədar olaraq kitabxanalarda diyarın təbliği məqsədilə guşələrin yaradılması məqsədəuyğun olardı. Məsələn: **"Mənim doğma diyarım"**, "**Lənkəran - Azərbaycanın Folklor Paytaxtıdır"və s.** Guşələr sərgiyə nisbətən daha geniş və əhatəli olmalıdır. Belə ki, guşədə əlavə olaraq kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzuya uyğun bir sıra sənədlər və şəkillər də öz əksini tapmalıdır. Guşələrin təşkilində əsas məqsəd turizmin təbliği ilə əlaqədar ədəbiyyatı, diyarı təbliğ etmək, oxucuya axtardığı materialları asanlıqla tapmaqda kömək etməkdən ibarətdir.

**Konfrans və seminarların təşkili** mövzunu, iştirakçıların tərkibini, keçirilmə vaxtını müəyyən etmək, seminara, konfransa rəhbər seçmək, onunla birlikdə hazırlıq planını, müzakirə ediləcək məsələləri, məruzələrin və məlumatların mövzusunu işləyib hazırlamaq, çıxış edənləri seçmək, seminar və konfrans haqqında xəbər vermək kimi məsələləri əhatə edir. Hazırlıq planında qrup və fərdi məsləhətlər, müzakirə edilən mövzularda ədəbiyyat siyahısı və sərgisinin təşkili, əyani vəsaitlərin hazırlanması, daha mürəkkəb mövzularda mühazirələrin, ekskursiyaların təşkili, kino-filmlərə baxış, mətbuatdan istifadə etmək və s. nəzərdə tutulur. Məruzə və məlumatların miqdarı seminar və konfransın mövzusu və vaxtından asılıdır. Nümunə kimi təqdim edilən **"Regionda turizmin inkişaf səviyyəsi və perspektivlər"**, **"Elektron təhsilin turizmdə rolu"**, **"Turizm təhsilinin inkişafı"**, **"Beynəlxalq arenada**

**Azərbaycan"** və s. mövzularda konfrans, seminar keçirmək olar. Təşkil edilmiş konfransda regionun, diyarın tarixi abidələri, istirahət mərkəzləri haqqında bukletlər, fotoşəkillərdən ibarət zərflər hazırlayıb konfrans iştirakçılarına təqdim etmək olar.

Yeni texnologiyaların kitabxana işinə tətbiqi nəticəsində bir çox kitabxanaların veb saytı yaradılmış, bəzi kitabxanalarda elektron kataloq, elektron kitabxana yaradılmasına başlanmış, oxuculara yeni xidmət üsulları təqdim edilmişdir. Hər bir mədəniyyət müəssisəsi muzey, kitabxana öz doğma diyarını təbliğ etmək məqsədilə saytında turizmə aid məlumat bazaları, reklam və tanıtım çarxları, məsləhət vitrinləri yarada bilər. Turizmin təbliği ilə əlaqədar istər kitabxanada ənənəvi üsulla, istərsə də saytda elektron formada məsləhət vitrininin yaradılması məqsədəmüvafiq olardı. "Doğma diyar-Azərbaycan", "Şəhərimizdə (rayonumuzda) turizm", "Soruşun cavab verək" (regionun turistik obyektləri haqqında), "Öz şəhərini tanıyırsanmı?", "Şəhərinin tarixini bilirsənmi?" və bir çox başqa adlarda təşkil etmək olar. Belə vitrinlərdə əsas məqsəd rayonun, şəhərin və ümumilikdə Azərbaycanın turizm obyektlərinin təbliği, həm yerli əhaliyə, həm də turistlərə doğma diyarımızın gözəlliklərinin təqdim edilməsidir.

Nümunə üçün **"Şəhərimizin (rayonumuzun) turizm gözəllikləri"** adlı məsləhət vitrinləri yaratmaq olar:

- **Gəzməli-görməli yerlər (fotoşəkillər və rayon haqqında qısaca məlumat)**
- **Reklam çarxları (CD/DVD disklərdə təqdim etmək olar)**
- **Bukletlər**
- **Sitatlar:**

**Sitat 1.**

"...Xoşbəxtliyimiz ondadır ki, bizim çox gözəl ölkəmiz vardır. Bəlkə dünya xəritəsində çox nadir hallarda belə gözəl,

təbii imkanlara malik ölkəyə rast gəlmək olar. Bizim doqquz iqlim qurşağımız, gözəl dənizimiz, dağlarımız, çaylarımız, bulaqlarımız vardır. Ona görə turizmin inkişafında, xüsusilə coğrafi vəziyyətimiz və Azərbaycanda hökm sürən sabitlik, ictimai-siyasi asayiş, təhlükəsizlik – bütün bu amillər turistlərin cəlb olunmasında xüsusi rol oynayır. ”

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Sitat 2.**

“Bütün regionlarda turizm infrastrukturunun genişləndirilməsinə diqqət yetirilir. Regionların inkişafına dair Dövlət Proqramında da turizm obyektlərinin sayının və şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulur. Bu baxımdan da əminliklə deyə bilərəm ki, Azərbaycan tezliklə regionda yeni bir turizm marşrutu kimi bütün dünyanın diqqət mərkəzinə çevriləcək.”

**Əbülfəs Qarayev,**
*Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri*

**Sitat 3.**

“Turizm dünyanın həm maddi-maliyyə, həm də insan həyatının mənalılığı baxımından təkcə perspektivli yox, eyni zamanda böyük əhəmiyyətli bir məsələsidir. İndi Azərbaycanın bu gün bu sahədə xüsusi bir mövqe qazanmağa çalışması və cənab Prezidentin də bu barədə birinci dəfə deyil, dəfələrlə mövqe ortaya qoyması çox əhəmiyyətli bir hadisədir. Azərbaycanda bu yöndə çox böyük layihələr həyata keçirilib, çox işlər görülüb və görülməkdədir. Eyni zamanda əgər bu il “Turizm ili” kimi elan olunursa, deməli, biz buna hazırıq və sözün həqiqi mənasında buna bir debüt ili kimi başlaya bilərik. Turizmin olması Azərbaycanın mədəniyyət abidələrinin bərpa olunması, Azərbaycanın dünya üçün maraqlılığının artırılması, Azərbaycanın dünyaya inteqrasiyası deməkdir ki, bu da çoxdan başlayıb.”

**Nizami Cəfərov**
**professor**

- Kitablar

**Azərbaycan**: Bələdçi kitabı [Mətn] /red. hey.: Rafael Hümbətov və b.- Bakı, 2003.- 256 s.

**Azərbaycan Respublikası** Mədəniyyət və Turizm Nazirliyinin illik hesabatı 2007 [Mətn] /Buraxılışa məsul. F.Qurbanov; Red. V.Quliyev, T.Vəliyev; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi .-Bakı , 2008. -98 s.

**Azərbaycan Respublikası** Mədəniyyət və Turizm nazirliyinin illik hesabati 2008 [Mətn] /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. red. V. Quliyev, T. Vəliyev; burax. məs. F. Qurbanov .-Bakı : Nağıl evi , 2009. 88, [2] s.

**Azərbaycan olduğu kimi** [Foto albom] /tərt. ed. V.İsmayılqızı; tərc. C.Hacıyev; elmi məsl. və məsul red. B.Budaqov; Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyi.- Bakı: İsmayıl NPM, 2003.- 73 s.

**Əlirzayev, Ə.** Turizmin inkişafının sosial-iqtisadi problemləri [Mətn] /Ə.Əlirzayev, S.Aslanova; rəy.: H.B.Allahverdiyev, S.Yaqubov.- Bakı: Adiloğlu, 2006.- 164 s.

**Hüseynov, İ.** Turizmin əsasları [Mətn]: dərslik /İ.Hüseynov, N.Əfəndiyeva.- Bakı, 2007.- 442 s.

**Qurbanov, F**. Azərbaycanda turizmin inkişaf problemləri [Mətn] /F. İ. Qurbanov; elmi red. Ş. M. Muradov; elmi məsləhətçi. R. R. Quliyev; AMEA İqtisadiyyat İn-tu .- Bakı : Adiloğlu ,2007.

**Məmmədov, C**. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları [Mətn] /C. A. Məmmədov, B. Bilalov ; elmi red. F. Qurbanov .-Bakı : Mütərcim , 2004. -209, [3] s.

**Məmmədov, C.** Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti [Mətn] /C.Məmmədov,

S.Rəhimov; elmi red.: M.M.Fərzəliyev.- Bakı: Qanun, 2000.- 272 s.

**Rəhimov, S.** Turizm-ekskursiya işinin təşkili [Mətn]: dərs vəsaiti /S.Rəhimov; elmi red. H.B.Soltanov; rəy. F.L. Nuriyev, T.G.Həsənov.- Bakı: Mütərcim, 2004.- 312 s.

**Zeynallı, Y.** Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarəolunmasının iqtisadi-coğrafi problemləri [Mətn] /Y.Q.Zeynallı; red.: B.T.Nəzirova; AEA akad. Q.A.Əliyeva adına Coğrafiya İnstitutu.- Bakı: Tuna, 1999.- 107 s.

## Rus dilində

**Азербайджан** [Текст].- Баку: Изд-во «Вокруг Света», 2010.- 262 с.

**Азербайджан**: туристические регионы [Текст] /руков. проек. А.Караев; ред. совет: Т.Мехтиев, А.Исмиев, Х.Гюльалиев, Л.Джеваншир.- Баку, 2005.- 134 с.

**Добро пожаловать в Азербайджан** [Текст] /руков. проек. А.Караев; ред.: Р.Гумбатов, М.Алиева, Д.Гусейнов, Н.Мамедов; дизайн Н.Новрузов.- Баку: AzerOlympic İnternational company, 2006.- 126 с.

## İngilis dilində

**A Hedonist’s Guide** to Baku [Tekst] /writ. by: Ben Illis.- United Kingdom, 2010.-190 s.

**Azerbaijan**: culture smart [Tekst].- Great Britain, 2011.- 168 s.

## • Məqalələr

**Abdullayeva, F.** Azərbaycan Turizm İnstitutunun beş yaşı tamam olur [Mətn] /F.Abdullayeva //Mədəniyyət.- 2011.- 11 fevral.- S.9.

**Abdullayeva, F.** Azərbaycanda qış turizminə maraq artır [Mətn] /F.Abdullayeva //Mədəniyyət.- 2011.- 25 fevral.- S.9.

**Abdullayeva, F.** Cənub bölgəsinin nadir geoloji obyektləri və onların ekoturizm perspektivləri [Mətn] /F.Abdullayeva //Xalq qəzeti.- 2011.- 5 fevral.- S.5.

**Abdullayeva, F.** Ölkəmizdə turizmin əksər növləri üçün zəngin imkanlar var: Alternativ turizm sahəsi də geniş perspektivlərə malikdir [Mətn] /F.Abdullayeva //Mədəniyyət.- 2011.- 7 yanvar.- S. 9.

**Ağsuda arxeoloji turizmin** inkişaf perspektivləri müzakirə edilib [Mətn] //Mədəniyyət.- 2011.- 9 fevral.- S. 11.

**Amanov, R.** İsmayıllı: turizmin inkişafı yeni imkanlara yol açır: 2011-ci il "Turizm ili"dir [Mətn] /R.Amanov //Respublika.- 2011.- 3 fevral.- S.5.

**Canbaxışlı, N.** Azərbaycanda turizm inkişaf edir: Nizami Cəfərov: "Tarixi yerlərlə bağlı silsilə qanunların qəbuluna ehtiyac var" [Mətn] /N.Canbaxışlı //Həftə içi.- 2011.- 20-21 yanvar.- S. 3.

**Ceyhun**. Hava limanında turizm informasiya mərkəzi yaradılıb [Mətn] /Ceyhun //Mədəniyyət.- 2011.- 23 fevral.- S.3.

**Ələsgərov, R.** Zaqatalada turizmin inkişafı üçün geniş imkanlar var [Mətn] /R.Ələsgərov //Mədəniyyət.- 2011.- 25 fevral.- S.8.

**Əliyev, A.** 2010-cu il Azərbaycan üçün uğurlu olub: Bu ildə də sürətli iqtisadi və sosial inkişaf gözlənilir [Mətn] /A.Əliyev //Həftə içi.- 2011.- 18 yanvar.- S.1-2.

**Əlizadə, Ş.** Azərbaycan turizm üçün çox cəlbedici ölkəyə çevriləcəkdir: 2011-ci ilin "Turizm ili" elan olunması bu fikri bir daha təsdiq edir [Mətn] /Ş.Əlizadə //Respublika.- 2011.- 13 fevral.- S.1.

**Günay.** Alternativ turizm insanları bir-birinə yaxınlaşdıran, dostlaşdıran istirahət növüdür [Mətn] /Günay //Paritet.- 2011.- 11-12 yanvar.- S. 11.

**Xəlilzadə, F.** Turistin ən yaxşı bələdçisi - "Azərbaycan təbiəti" [Mətn] /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 26 yanvar.- S. 7.

**Loğmanoğlu, S.** Azərbaycanda "Turizm ili" start götürdü: Prezident İlham Əliyev: "2011-ci ildə Bakıda 5 beşulduzlu mehmanxana açılacaq, bu, dünyada analoqu olmayan bir hadisədir" [Mətn] /S.Loğmanoğlu //Yeni Azərbaycan.- 2011.- 20 yanvar.- S. 3.

**Niftəliyev, E.** Azərbaycan 2011-ci ilin ilk turizm sərgisində uğurla təmsil olunmuşdur [Mətn]: [ilk beynəlxalq turizm yarmarkası haqqında] /E.Niftəliyev //Azərbaycan.- 2011.- 18 yanvar.- S. 8.

**Prezident İlham Əliyev** və xanımı Mehriban Əliyeva Şahdağ Qış-Yay Turizm Kompleksinin 2 nömrəli kanat və xizək enişinin açılışında iştirak etmişlər [Mətn] //Azərbaycan.- 2011.- 1 mart.- S.1.

**Turizm tarixinə qısa** ekskurs [Mətn] //Mədəniyyət.- 2011.- 27 aprel.- S. 13.

**Uşaq turizmi: imkan** və perspektivlər [Mətn] //Mədəniyyət.- 2011.- 30 mart.- S.9.

## • İzahlı mətnlər

Nümunə:

Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, dəstəklənməsi, xalq yaradıcılığının təbliği və təşviqi istiqamətində aparılan islahatların davamı olaraq milli folklor ustaları və kollektivlərinin, sənətkarların, milli adət-ənənələrin və eyni zamanda respublikanın şəhər və rayonlarının beynəlxalq səviyyədə tanıdılması, daxili və xarici turizmin inkişafı məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramının icrası ilə bağlı 2011-ci il üçün diyarşünaslıq, folklor və sənətkarlıq nominasi-

yaları üzrə "paytaxt" seçilmək üçün 20-dən artıq şəhər namizədliklərini irəli sürmüşdür.

Təqdim olunmuş təkliflər müvafiq namizəd şəhərlərin ümumi hazırlığı, tarixi ənənələri və digər amillər nəzərə alınmaqla təhlil edilmiş və 2011-ci il üçün Şabran şəhəri "Azərbaycanın Əfsanələr Paytaxtı", Lənkəran şəhəri "Azərbaycanın Folklor Paytaxtı" və İsmayıllı şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilmişdir.

Məsələ ilə əlaqədar Şabran, Lənkəran və İsmayıllı şəhərlərində il ərzində nominasiyalara uyğun olaraq təntənəli mərasimlərin, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfransların, dəyirmi masaların, konsertlərin, müsabiqələrin, festivalların, sərgilərin, yarmarkaların, infoturların və sair tədbirlərin təşkili nəzərdə tutulmuşdur.

**Və ya**

**Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikasında turizmin daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədi ilə qərara alıram:

**1**.2011-ci il Azərbaycan Respublikasında "Turizm ili" elan edilsin.

**2**. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2011-ci ilin Azərbaycan Respublikasında "Turizm ili" elan edilməsinə dair tədbirlər planını hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 fevral 2011-ci il**

Belə vitrinlərə əsas tələbat maksimum dərəcədə əyanilik və operativlik, informasiyaların daim yenilənməsidir. Saytda həmin yerlərə getmək üçün yol xəritəsinin göstərilməsi də məqsədəuyğun və maraqlı olardı.

Əhalini kitabxanaya cəlb etmək, oxucuları həvəsləndirmək məqsədilə **sərgi müsabiqəsi** keçirmək olar. Müsabiqəni gənclər və yeniyetmələrin əl işlərindən ibarət rəsmlər, müəyyən yerin modeli, maketi, foto şəkillər və s. təşkil edə bilər. Kitabxanaçı əvvəlcədən öz oxucularına məlumat verə bilər ki, **"Rayonumuz - turizm obyekti kimi"** mövzusunda müsabiqə keçiriləcək. Ərazidə olan orta məktəblər, liseylər, kolleclər, musiqi məktəblərinin şagirdlərini və digər müəssisələrdə çalışan şəxsləri də bu işə cəlb etmək olar. Bu həm uşaqlar və yeniyetmələrin bacarığını üzə çıxarmağa səbəb olacaq, həm də rayonla daha yaxından tanış olmaqda kömək edəcəkdir. Baxça yaşlı uşaqlar, yeniyetmələr, gənclər və hətta evdar xanımları da bu tipli müsabiqələrə cəlb etmək olar. Kitabxanaçı əl işlərini topladıqdan sonra ədalətli seçim etmək məqsədilə mütəxəssislərdən ibarət komissiya yaradır və konkret gün təyin edilir, sərgi keçirilir. Qaliblər müəyyən edilərək hədiyyələrlə mükafatlandırılır. Həmçinin həvəsləndirici təltiflər, fəxri fərmanlar da hazırlamaq olar.

Kütləvi-şifahi işin ən təsirli və geniş yayılmış metodu olan **Söhbətlərdən** turizmin təbliğində istifadə etmək olar. O, öz çevikliyi və operativliyi ilə seçilir. Kiçik qrup ilə (qruplar üzrə) və ayrı-ayrı şəxslərlə (fərdi) keçirilir və onu hər bir şəraitdə, işdən asudə vaxtda da keçirməyə imkan verir. Söhbətin əsas xüsusiyyəti qarşılıqlı danışıq, məsələnin birgə

müzakirəsidir. Söhbətin müvəffəqiyyəti mövzunun aktuallığından, oxucuların həmin mövzuya olan marağından, söhbət aparanın səviyyə, savad və hazırlığından, problemin kollektiv müzakirəsinə iştirakçıları cəlb etmək bacarığından asılıdır. **Söhbətə hazırlıq metodikası**-məqsədin müəyyən edilməsi, mövzunun seçilməsi, planın işlənməsi, materialın seçilib öyrənilməsi, əyani materialların toplanmasından ibarətdir. Söhbəti qəzet və ya jurnal məqaləsinin oxunuşundan, kiçik söhbətdən, hər hansı bir sualın qoyuluşundan başlamaq olar. Mövzunun müzakirəsinə daha çox dinləyici cəlb etmək üçün oxuculara veriləcək suallar çox diqqətlə düşünülməlidir. Müzakirənin vaxtında yekunlaşdırılmasının, çıxış edənlərin hamısına diqqətlə yanaşılmasının, meydana çıxan suallar üzrə tədbir görülməsinin söhbətin müsbət nəticəsi üçün böyük əhəmiyyəti vardır.

Mühazirə və söhbətlər texniki vasitələrlə müşayiət olunmalıdır. Bu zaman video çəkilişlərdən, sənədli filmlərdən və İnternet səhifələrində olan məlumatlardan istifadə etmək məqsədəuyğundur.

**Nümunə üçün:** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramının icrası ilə bağlı 2011-ci il üçün diyarşünaslıq, folklor və sənətkarlıq nominasiyaları üzrə "paytaxt" seçimi haqqında söhbət keçirmək olar. Bu "paytaxt"lardan biri olmaq üçün 20-dən artıq şəhər namizədliklərini irəli sürmüşdür. Niyə məhz sizin şəhər seçilməlidir? Sizin şəhərin və ya rayonun özəlliyi, fərqliliyi nədən ibarətdir? Ümumi hazırlıq səviyyəsi, tarixi ənənələri və mədəni fəaliyyət sahələri və digər amillər nəzərə alınmaqla təhlil aparıla bilər. Növbəti seçimlərdə sizin regionun "paytaxt" seçilməsi üçün müəyyən təkliflər, layihələr barədə söhbət aparmaq olar. Söhbət zamanı şəhəriniz haqqında təbliğat xarakterli çarxlar, təqdimatlar (prezentasiyalar), fotoqalereyalar təqdim etmək olar. Və yaxud da rayonunuzda, şəhərinizdə turizmin inkişaf

səviyyəsi, turizm üçün əlverişli məkanların seçilməsi, təbliği, bu prosesdə kitabxanaların iştirakı ilə əlaqədar da söhbətlər keçirmək məqsədəuyğun olardı.

**Reklam informasiya işi.**

**Reklam** - istifadəçi və ya tamaşaçı cəlb etmək məqsədilə müxtəlif üsullarla hər hansı məhsulun tanıdılmasıdır. Reklam və tanıtma, bir ölkənin beynəlxalq turizm bazarındakı tələbinə təsir edən bir amil olaraq qəbul edilməkdədir. Tanıtma fəaliyyətləri, potensial istehlakçı qruplarını hədəfə alaraq fərdlərə istiqamətlənmiş bir fəaliyyətdir. Reklam və tanıtma fəaliyyətlərinin turizm tələbi üzərindəki ən önəmli təsiri, bir turistik bölgə ya da ölkə haqqında istehlakçıya məlumat verməsidir. Bu məqsədlə, beynəlxalq turizmdə söz sahibi olan ölkələr, bir yandan sahib olduqları imici qoruya bilmək, digər yandan da bazardan daha artıq pay ala bilmək üçün reklam və tanıtma fəaliyyətlərinə daha artıq vəsait ayırmaqdadırlar. Hər bir obyektə maraq reklamdan başlayır. Turizm obyektlərinin təbliği məqsədilə reklam çarxlarının, bukletlərin hazırlanması çox böyük əhəmiyyət kəsb edir. Reklam çarxları vasitəsilə hər kəs internet və ya televiziya vasitəsilə istənilən ölkə haqqında, onun turizm imkanları, istirahət məkanları və s. barədə məlumat əldə edə bilər. Ölkənin tanıdılması məqsədilə çəkilən hər bir çarx turist cəlbetmə gücünə malik olmalıdır. Bu baxımdan turizm reklam çarxının estetik və texniki cəhətdən professionallığı dünya reklam bazarının yüksək şərtlərinə uyğun gəlməlidir. Son illər ölkənin turizm imkanlarından bəhs edən **“Azərbaycan”, “Odlar yurduna xoş gəldiniz”, “Ecazkar rənglər diyarı”, “Bakı”, “Azərbaycanı kəşf et”** və s. başlıqlı reklam çarxları dünyanın bir sıra nüfuzlu telekanallarında nümayiş olunmuşdur.

Reklam məlumatlarının əsas tələbləri bunlardır:

-istifadəçiyə yeni informasiyaları təqdim etmək;

-reklam olunan obyektin əhəmiyyətli olduğuna inandırmaq;

-auditoriyanın xüsusiyyətini nəzərə almaq;

-reklam olunan obyektin əsas xüsusiyyətlərini əks etdirmək.

Reklam məlumatının ən geniş yayılmış forması – elandır.

Məzmununa və məqsədinə görə elanın bir neçə forması vardır. Anons, reklam, afişa, bildiriş və s. kimi əməli yazılar elan xarakterlidir.

Elan bu və ya digər məlumatı insanlara qabaqcadan çatdırmaqla təşkiledici missiyanı yerinə yetirir.

Bu gün kitabxanalara oxucu cəlb etməyin əsas şərtlərindən biri elanlarda tədbirin məzmununun necə təqdim edilməsi, nə şəkildə oxucuya çatdırılmasıdır. Keçiriləcək tədbir haqqında səliqəli elan yazılmalı, tədbirdə iştirak edəcək şəxslərin adları və titulları qeyd edilməlidir. Tədbirə maraqlı, göz və könül oxşayan adın seçilməsi də əsas şərtdir.

Tədbirin keçiriləcəyini informasiya vasitələrindən istifadə etməklə də yaymaq olar. Kitabçaların, bukletlərin, elanların, vərəqələrin maraqlı tərtibatı çox mühüm amildir.

**Monitorinq** - hansısa prosesin arzu olunan nəticəyə və ya ilkin ehtimallara uyğunluğunu aşkar etmək, hər hansı məsələyə dair ictimai rəyi öyrənmək məqsədilə həmin prosesin daimi surətdə müşahidə edilməsi deməkdir. Hər hansı bir regionun turizm gözəlliklərinin təbliği səviyyəsinin öyrənilməsi məqsədilə muzeylərdə, mədəniyyət evlərində, klublarda, kitabxanalarda monitorinqlər keçirmək olar. Kitabxanalarda turizm ədəbiyyatının təbliği, oxucuların turizmə aid informasiya tələbatlarının ödənilməsi səviyyəsini yoxlamaq, fondların turizm ədəbiyyatı ilə komplektləşdirilməsi səviyyəsini müəyyənləşdirmək məqsədilə və s. monitorinqlər keçirmək mümkündür. Bunun üçün əvvəlcədən proqram hazırlanır. Monitorinq keçirərkən obyektin düzgün öyrənilməsi, məlumatların toplanması, tədqiqatın aparılması, müşahidə, sorğu və müsahibələrin keçirilməsi, fotoçəkiliş,

videoçəkiliş kimi proseslərin izlənməsi, əldə edilən məlumatların təhlili, qiymətləndirilməsi nəzərə alınmalıdır.

Monitorinqin nəticələri cədvəl(lər)ə yerləşdirilir, ardıcıllıq gözlənilir və monitorinq edən tərəf dövlət qurumlarının qeydlərini əldə etməkdə, hesabatın hazırlanması və ictimaiyyətə çatdırılmasında maraqlı olmalıdır. Hesabata icraçılar, monitorinqin üsulları və göstəriciləri, monitorinq edilən tərəf barədə məlumatlar daxil edilməli və dili anlaşıqlı olmalıdır.

# ƏLAVƏLƏR

## ƏLAVƏ 1.

## TURİZM HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir.

**Maddə 1.** Əsas anlayışlar

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

turizm – Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri);

turist – istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, 24 saatdan 12 ayadək müddətdə müvəqqəti olan şəxs;

tur – konkret müddətdə konkret marşrut üzrə fərdi və ya qrup halında səfərdən ibarət olan, turizm məhsulunun vauçer şəklində satılan forması;

turizm yollayışı – ciddi hesabatlı blank olub, proqramla nəzərdə tutulmuş xidmətlərin ödənildiyini təsdiq edən sənəd;

turizm vauçeri – xarici turistlərə xidmət göstərilməsi və firma ilə qarşılıqlı ödəmələr aparılması üçün əsas olmaqla, turun tərkibinə daxil olan xidmətlər üzərində turistin hüququnu müəyyənləşdirən və xidmətlərin göstəriləcəyi faktını təsdiq edən sənəd;

turagent – turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxs;

turagentlik – turizm və ekskursiya yollayışlarının satışı, habelə turizm – ekskursiya fəaliyyətinin təşkili üzrə (informasiya, reklam, marketinq və s.) digər xidmətlər göstərilməsi ilə məşğul olan vasitəçi təşkilat;

turizm məhsulu – turistlərə göstərilən xidmətlər kompleksi (turistlərin yerləşdirilməsi, daşınması, yeməyi üzrə xidmətlər kompleksi, ekskursiya, həmçinin bələdçi (bələdçi-tərcüməçi) xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər);

turizm fəaliyyəti – turoperator və turagent fəaliyyəti, habelə səyahətlərin təşkili üzrə digər fəaliyyət;

ekskursiya fəaliyyəti – turoperatorun müddəti 24 saatdan çox olmayan və turistlərin yerləşdirilməsi (gecələməsi) xidmətini nəzərdə tutmayan turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı üzrə fəaliyyəti;

daxili turizm – Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudları daxilində səyahətləri;

xarici turizm – Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin başqa ölkəyə səyahətləri;

gəlmə turizm – Azərbaycan Respublikasında yaşamayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudları daxilində səyahətləri;

sosial turizm – sosial ehtiyaclar üçün dövlətin ayırdığı vəsaitdən yardımlanan səyahət;

özfəaliyyət turizmi – yerdəyişmənin aktiv üsullarından istifadə olunmaqla, turistlər tərəfindən sərbəst təşkil edilən səyahətlər;

turizm ehtiyatları – səfər edilən ölkənin (yerin) təbii, mədəni, tarixi, sağlamlaşdırma obyektləri və turistlərin ayrı-ayrılıqda və ya kompleks halında tələb və ehtiyaclarını təmin edə bilən, onların fiziki və mənəvi qüvvələrinin bərpası və inkişafına kömək edə bilən digər obyektlər məcmusu;

turizm infrastrukturu – turizm məhsulu istehsalı təşkilinin kompleksli sistemi və yaxud mehmanxana və digər yerləşdirmə -yerdəyişmə, nəqliyyat vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri və vasitələrinin, tanış olma, idraki, iş-peşə, sağlamlaşdırma, idman və digər təyinatlı obyektlərin, turoperator və turagent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisə və təşkilatların, həmçinin ekskursiya və bələdçi) bələdçi-tərcüməçi) xidmətləri göstərən təşkilatların məcmusu;

turizm məhsulunun hərəkətə gətirilməsi – turizm məhsulunun satışına yönəldilmiş tədbirlər kompleksi (reklam, ixtisaslaşdırılmış sərgilər, yarmarkalarda iştirak, turizm məhsulunun satışı üzrə turizm informasiya mərkəzlərinin təşkili, kataloqların, bukletlərin və s. nəşri).

**Maddə 2.** Turizm haqqında qanunvericilik

Turizm haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasına əsaslanır və bu Qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3.** Turizm fəaliyyətinin dövlət tənzimlənməsi

1. Dövlət turizm sahəsində:

1.1 turizm fəaliyyətinə kömək edir və onun inkişafı üçün əlverişli şərait yaradır;

1.2 turizm fəaliyyətinin üstün istiqamətlərini müəyyən edir və onun həyata keçirilməsinə kömək edir;

1.3 Azərbaycan Respublikası haqqında turizm üçün əhəmiyyətli bir ölkə kimi təsəvvür formalaşdırır.

**2.** Turizm fəaliyyətinin tənzimlənməsinin əsas məqsədləri aşağıdakılardır:

2.1. turistlərin səyahətləri zamanı istirahət, yerdəyişmə azadlığı və digər hüquqlarını təmin etmək;

2.2. ətraf mühiti (təbiəti) qorumaq;

2.3. turistlərin səyahətləri zamanı onların tələbatlarını təmin edən turizmin infrastrukturunu inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, dövlətin və onun vətəndaşlarının gəlirlərini artırmaq;

2.4. beynəlxalq əlaqələri inkişaf etdirmək, turizm baxış obyektlərini qoruyub saxlamaq, təbii, tarixi və mədəni irsdən səmərəli surətdə istifadə etmək.

**3.** Turizm fəaliyyətinin dövlət tənzimlənməsinin üsulları aşağıdakılardır:

3.1. turizm infrastrukturu sahəsində münasibətlərin təkmilləşməsinə yönəldilmiş normativ hüquqi aktların qəbul edilməsi;

3.2 daxili və dünya turizm bazarlarında turizm məhsulunun hərəkətə gətirilməsinə kömək göstərilməsi;

3.3 turistlərin hüquq və maraqlarını müdafiə etmək, onların təhlükəsizliyinin təmin edilməsi;

3.4. turizm infrastrukturu sahəsində xüsusi razılığın verilməsi, standartlaşdırma və turizm məhsulunun sertifikatlaşdırılması;

3.5. turizmin inkişaf etdirilməsi üzrə məqsədli dövlət proqramlarının işlənib hazırlanması;

3.6. turizm infrastrukturuna investisiya qoyuluşu, o cümlədən xarici investorların cəlb olunması üçün əlverişli şərait yaradılması;

3.7. turizm fəaliyyəti sahəsinin kadr təminatına kömək edilməsi;

3.8. turizm infrastrukturu sahəsində elmi tədqiqatların inkişaf etdirilməsi;

3.9. Azərbaycan turistlərinin, turoperatorlarının, turagentlərinin və onların birliklərinin beynəlxalq turizm proqramında iştirakına şərait yaradılması;

3.10. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər üsullar.

**Maddə 4.** Turizm sahəsində dövlətin vəzifələri

1.Turizm sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

1.1. turizm sahəsində dövlət siyasətinin əsaslarını və bu sahənin əsas istiqamətlərini müəyyənləşdirmək;

turizmin inkişafına dair dövlət proqramını işləyib hazırlamaq;

turizmin normativ bazasını işləyib hazırlamaq;

turizmdə sahələrarası və regionlararası fəaliyyəti əlaqələndirmək;

Azərbaycan Respublikasını xaricdə əhəmiyyətli turizm ölkəsi kimi tanıtmaq məqsədilə informasiya şəbəkəsi yaratmaq;

beynəlxalq turizm təşkilatlarında Azərbaycan Respublikasının nümayəndəliyini təşkil etmək, turizmin inkişafına dair beynəlxalq proqramın işlənib hazırlanmasında iştirak etmək, turizm sahəsində əməkdaşlıq üzrə müqavilələr bağlamaq və onların həyata keçirilməsi mexanizmini işləyib hazırlamaq;

ərazi-turizm ehtiyatları kimi qəbul edilmiş obyektlərin qorunmasını və fəaliyyətini təşkil etmək;

turizm sahəsində peşə-ixtisas təhsili üzrə istiqamətləri və ixtisasların siyahısını müəyyən etmək;

turizm qanunvericiliyinin icrasına nəzarət etmək;

turizm sahəsində standartlaşdırma və sertifikatlaşdırma qaydalarını hazırlamaq;

turizm təşkilatlarının reyestrini aparmaq;

mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, turizm fəaliyyəti ilə məşğul olan və turistlərə xidmət göstərən bütün müəssisələrdə xidmətlərin dövlət standartlarına riayət olunmasına nəzarət etmək.

**Maddə 5.** Turizm sahəsində xüsusi razılığın verilməsi, standartlaşdırma və turizm məhsulunun sertifikatlaşdırılması

1.Turizm fəaliyyəti sahəsində standartlaşdırmaya aşağıdakılar aiddir:

1.1.turizm müəssisələrinin və turizm məhsullarının təsnifatı;

1.2.turizm məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin edilməsi;

1.3.turizm məhsullarının turist tələbatına uyğunluq parametrlərinin müəyyənləşdirilməsi;

1.4.turizm müəssisələrinin işçilərinə verilən ixtisas tələbləri;

1.5.turizm müəssisələrinin ofislərinə verilən tələblər.

**2.** Turizm fəaliyyəti sahəsində standartlaşdırma obyektləri müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**3.** Turizm fəaliyyəti sahəsində sertifikatlaşdırma turizm məhsulunun turistlərin tələbatını təmin edən, onların əmlakını qoruyan, ətraf mühiti mühafizə edən qanunlara və digər normativ aktlara uyğunluğunu müəyyən etməkdir.

**4.** Turoperatorun və ya turagentin turizm məhsulunun məcburi sertifikatlaşdırılmasından imtina etməsi, turizm məhsulunun sertifikatlaşdılırmasının mənfi nəticəsi, habelə sertifi-

katın ləğv olunması turizm fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş xüsusi razılığın qüvvəsinin dayandırılması və ya ləğvi ilə nəticələnir.

**5.** Turizm sahəsində xüsusi razılığın verilməsi, standartlaşdırma və turizm məhsulunun sertifikatlaşdırılması qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

**Maddə 6.** Turistin hüquqları

**1.** Turist səyahətə hazırlaşarkən, habelə, tranzit də daxil olmaqla, bütün səyahət müddətində aşağıdakı hüquqlara malikdir:

1.1. nəzərdə tutulan proqrama müvafiq getdiyi ölkəyə (yerə) daxil olma, orada qalma qaydaları, yerli əhalinin adətləri, dini mərasimlər, müqəddəs yerlər, xüsusi mühafizədə olan təbiət, tarix, mədəniyyət abidələri və digər turizm obyektləri, ətraf mühitin vəziyyəti barədə zəruri və dürüst informasiya almaq;

1.2. getdiyi ölkədə (yerdə) mövcud olan məhdudiyyət tələbləri nəzərə alınmaqla, hərəkət-yerdəyişmə hüququndan, turizm ehtiyatlarından sərbəst istifadə etmək;

1.3. həyatının və sağlamlığının qorunması üçün təxirəsalınmaz tibbi yardım alınması hüququna malik olmaq;

1.4. turizm məhsulunun pərakəndə alqı-satqı müqaviləsi şərtlərinin turoperator və ya turagent tərəfindən yerinə yetirilmədiyi hallarda ona dəymiş maddi və mənəvi ziyanın qanunvericilikdə müəyyən olunmuş qaydada ödənilməsini tələb etmək;

1.5 getdiyi ölkənin (yerin) hakimiyyət və yerli özünüidarə orqanlarından hüquqi və digər təxirəsalınmaz yardım növləri göstərilməsində kömək almaq;

**Maddə 7.** Turistin vəzifələri

**1.** Azərbaycan Respublikasından xarici ölkəyə gedən turistin tranzit də daxil olmaqla, səyahət vaxtı aşağıdakı vəzifələri var:

1.1. getdiyi ölkənin (yerin) qanunlarına riayət etmək, onun sosial quruluşuna, adətlərinə, ənənələrinə, dini etiqadlarına hörmət etmək;

1.2. müvəqqəti olduğu ölkədə (yerdə) ətraf mühiti mühafizə qaydalarına riayət etmək, təbiət, tarix və mədəniyyət abidələrinə qayğı ilə yanaşmaq;

1.3. müvəqqəti getdiyi ölkədə (yerdə), habelə yolboyu keçdiyi ölkələrdə gəlmə, getmə qaydalarına riayət etmək;

1.4 səyahət zamanı şəxsi təhlükəsizlik qaydalarına riayət etmək.

**2.** Azərbaycan Respublikasına gəlmiş turist yuxarıdakı müddəalara əməl etməklə bərabər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş ölkəyə (müvəqqəti olduğu yerə) gəlmə və ölkədən (müvəqqəti olduğu yerdən) getmə, habelə orada qalma qaydaların riayət etməlidir.

**Maddə 8.** Turizm məhsulunun formalaşdırılması və hərəkətə gətirilməsi

Turizm məhsulu turizm bazarının vəziyyəti ilə əlaqədar olaraq və yaxud da turistin konkret sifarişi üzrə formalaşdırılır.

Turoperator ayrı-ayrı xidmətlər göstərən və yaxud tura daxil olan bütün xidmət növlərini təmin edən turist qəbulu üzrə turoperatorla müqavilələr əsasında tura daxil olan xidmətlər üzərində hüquqlara malik olur.

Turoperator turizm məhsulunu formalaşdırır (hazırlayır), göndərir və onun satışını birbaşa və ya turagent vasitəsilə həyata keçirir.

Turizm məhsulu haqqında yazılı informasiyada müqavilənin Azərbaycan Respublikasının Mülki Məcəlləsində, həmçinin bu Qanunda nəzərdə tutulmuş bütün vacib şərtləri varsa və turoperatorun və ya turagentin təklifdə göstərilmiş şərtlərlə müqavilə bağlamaq iradəsi ifadə olunarsa, belə təklif müqavilə təklifi kimi qəbul olunur.

**Maddə 9.** Turizm məhsulu satışının təşkili qaydaları

**1.** Turizm məhsulunun satışı müqavilə əsasında həyata keçirilir. Müqavilə yazılı formada bağlanır və o, Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyə uyğun olmalıdır.

2.Müqavilənin vacib şərtləri aşağıdakılardır:

2.1. turizm fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziya barədə məlumatlar göstərilməklə turoperator haqqında informasiya, onun hüquqi ünvanı və bank rekvizitləri;

2.2. turist (alıcı) haqqında turizm məhsulunun satışı üçün zəruri olan həcmdə məlumat;

2.3. turizm fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş xüsusi razılıq barədə məlumatlar göstərilməklə turagent (satıcı) haqqında informasiya, onun hüquqi ünvanı və bank rekvizitləri;

2.4. səyahətin proqramı və marşrutu barədə məlumat göstərilməklə turizm məhsulunun istehlak xassələri, tursitlərin təhlükəsizlik şərtləri, turizm məhsulunun sertifikatlaşdırılmasının nəticələri haqqında düzgün məlumat;

2.5. səyahətin başlanmasının və qurtarmasının tarixi və vaxtı, onun müddəti;

2.6. turistlərin qarşılanması, yola salınması və müşayiət olunması qaydası;

2.7. tərəflərin hüquqları, vəzifələri və məsuliyyəti;

2.8. turizm məhsulunun pərakəndə qiyməti və onun ödəniş qaydası;

2.9 qrupda turistlərin minimal sayı, qrup üzvlərinin çatışmamazlığı üzündən səyahətin olmayacağı barədə turistin məlumatlandırılması müddəti;

2.10. müqavilənin dəyişdirilməsi və pozulması şərtləri, bununla əlaqədar əmələ gəlmiş mübahisələrin tənzimlənməsi və tərəflərə dəymiş ziyanların ödənilməsi qaydası.

**3.** Müqavilənin digər şərtləri tərəflərin razılığı ilə müəyyən edilir. Turistin turoperatordan və ya turagentdən tura daxil olan bütün xidmətlərin göstərilməsini tələb etmək hüququ var.

**4.** Tərəflərin hər birinin, səyahət vaxtı şəraitin əsaslı dəyişikliyi ilə əlaqədar olaraq, müqaviləni dəyişdirməyi və ya onu pozmağı tələb etmək hüququ var.

**5.** Şəraitin əsaslı dəyişikliyinə aşağıdakılar aiddir:

5.1. səyahətin şərtlərinin pisləşməsi, səyahətin müddətində dəyişiklik;

5.2. səyahətin baş tutması üçün müqavilədə göstərilmiş qrupda turistlərin minimal sayının natamamlığı;

5.3. nəqliyyat tariflərinin gözlənilmədən artması;

5.4. turoperatorun və ya turagentin maliyyə vəziyyətini kəskin pisləşdirən yeni vergi və vergitutma qaydalarının tətbiqi və ya mövcud olanların artırılması;

5.5. milli valyuta kursunun kəskin dəyişilməsi.

**6.** Müqavilə pozulduqda, zərərin ödənilməsi tərəflərin çəkdikləri faktiki xərclərə uyğun surətdə həyata keçirilir. Zərərin əvəzi kimi ödənilən məbləğ turizm məhsulunun dəyərinin iki mislindən artıq ola bilməz.

**7.** Səyahətin konkret şərtləri, turizm məhsulunun pərakəndə qiyməti turistə turoperator və ya turagent tərəfindən verilən turizm yollayışında göstərilir.

**8**. Turizm yollayışı müqavilənin ayrılmaz hissəsi olmaqla, turoperatorun və ya turagentin turizm məhsulunun satışına yazılı razılıq və onun satıldığı faktını təsdiqləyən ilkin hesabat sənədidir.

**9.** Turist göndərən turoperatorla və ya turagentlə turist qəbul edən turoperator və ya tura daxil olan konkret xidmətləri təklif edən şəxslər arasında qarşılıqlı ödəmələr turizm vauçeri əsasında həyata keçirilir.

**Maddə 10.** Turoperatorların, turagentlərin və turistlərin birlikləri

**1.** Turoperatorlar və turagentlər özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, həmçinin ümumi əmlak maraqlarının təmsili və müdafiəsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada birliklər yarada bilərlər.

**2.** Turizm birliklərinə turizm sahəsinə aid olan təşkilatlar və müəssisələr daxil ola bilərlər.

**3.** Turistlər, səyahət vaxtı istirahət, hərəkət-yerdəyişmə azadlığı hüquqlarını və başqa hüquqlarını həyata keçirmək məqsədilə maraq birliyi əsasında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ictimai birliklər yarada bilərlər.

**4**. Turistlərin birliyinin fəaliyyəti turizmin və özfəaliyyət turizminin təşkilinə və inkişafına, əhalinin turizm sahəsində maarifləndirilməsi, turistlərin hüquq və marağının müdafiəsi, turizmin infrastrukturu sahəsində təşkilatların fəaliyyəti barədə ictimai rəyin formalaşdırılması və digər vəzifələrin həllinə kömək etməyə yönəldilə bilər.

**Maddə 11.** Azərbaycan Respublikasının turizm ehtiyatları

Azərbaycan Respublikasının turizm ehtiyatlarının təsnifatı və qiymətləndirilməsi, onların mühafizəsi rejimi, Azərbaycan Respublikasının turizm ehtiyatlarının bütövlüyünün saxlanılması və onların bərpası üzrə tədbirlər, ətraf mühitə yol verilə bilən təsirin həddi nəzərə alınmaqla, turizm ehtiyatlarından

istifadə qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyənləşdirilir.

**Maddə 12.** Turistlərin təhlükəsizliyinin təmin edilməsi

Turistlərin təhlükəsizliyi – səyahət müddətində turistlərin şəxsi təhlükəsizliyi və onların əmlakının qorunmasıdır.

Turistlərin sığortalanması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Turizm sahəsində müvafiq icra hakimiyyəti orqanı turistlərin getdikləri ölkədə (müvəqqəti olacaqları yerdə) onların həyatını təhlükə altında qoya biləcək hər bir amil haqqında turoperatorlara, turagentlərə və turistlərə məlumat və təlimat verir.

Təsisçiləri dövlət orqanları olan kütləvi informasiya vasitələri turizm sahəsində müvafiq icra hakimiyyəti orqanına turistlərin həyatı üçün təhlükə qorxusu barədə təcili məlumat verməyə imkan yaradırlar.

Turoperatorlar, turagentlər turistlərə səyahətlərin xüsusiyyətləri, habelə səyahət zamanı onların rast gələ biləcəkləri təhlükələr barədə müfəssəl məlumat verməyə, qabaqcadan turistlərin təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş tədbirlər görməyə borcludurlar.

Turoperatorlar, turagentlər səyahət zamanı turistlərin qatlaşdığı (üzləşdiyi) fövqəladə hadisələr, həmçinin səyahətdən qayıtmamış turistlər barədə müvafiq icra hakimiyyəti orqanına və turizm fəaliyyəti ilə bilavasitə bağlı olan şəxslərə təxirəsalmadan məlumat verməlidirlər.

Yoluxucu xəstəliklər təhlükəsi olan ölkəyə (yerə) göndərilən turistlər beynəlxalq tibbi tələbatlara müvafiq surətdə lazımi tibbi yoxlamadan keçməli və təhlükəli yoluxucu xəstəliklərə qarşı peyvənd olunmalıdırlar.

Turist qruplarını müşayiət edən şəxslərin proqram əsasında minimum tibbi hazırlığı, tibbi ləvazimatı və ilkin yardım üçün tibb çantası olmalıdır. Sayı 100 nəfərdən artıq olan turist

qrupları ixtisaslaşdırılmış həkim tərəfindən müşayiət olunmalıdır.

**Maddə 13.** Turistlərin sığortalanması

Turistlərin getdiyi, müvəqqəti olacağı ölkənin (yerin) qanunvericiliyi ilə həmin ölkədə müvəqqəti olan şəxslərə göstərilən tibbi yardım üçün xərcin ödənilməsinə zəmanət verilməsi tələbi müəyyən edilmişdirsə, turoperator (turagent) belə zəmanətləri verməlidir. Turistlərin qəflətən xəstələnməkdən və bədbəxt hadisələrdən sığortalanması belə zəmanətlərin əsas formasıdır.

Sığorta şəhadətnaməsində turistlərin getdiyi, müvəqqəti olacağı ölkədə (yerdə) sığorta hadisəsi olduqda, onlara tibbi yardım xərclərinin və bu hadisə ilə bağlı digər xərclərin ödənilməsi nəzərdə tutulmalıdır.

Sığorta şəhadətnaməsi Azərbaycan dilində və turistlərin getdiyi ölkənin və ya ölkələrin dövlət dilində tərtib olunur.

Turistlərin tələbi ilə turoperator (turagent) səyahətin keçirilməsi ilə bağlı digər hallar (nəqliyyatın ləngiməsi, şəxsi əmlakın itirilməsi, izafi xərclər və s.) üzrə sığorta xidmətləri göstərilməsinə kömək edir.

**Maddə 14.** Turistlərin təhlükəsizliyinin təmin edilməsi üzrə ixtisaslaşdırılmış xidmətlər

Azərbaycan Respublikasının ərazisində bədbəxt hadisələrə uğramış turistlərə axtarış-xilasetmə xidməti lazımi yardım göstərir və onların təhlükəsizliyini təmin edir. Axtarış-xilasetmə xidməti yerli icra hakimiyyəti, səhiyyə, rabitə, daxili işlər orqanları və s. xidmət idarələri ilə müvafiq qaydada qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir.

**Maddə 15.** Azərbaycan Respublikasının hüdudlarından kənarda fövqəladə vəziyyət yarandığı hallarda Azərbaycan turistlərinin maraqlarının müdafiəsi

Fövqəladə vəziyyət yarandığı hallarda dövlət Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan turistlərinin maraqlarının müdafiəsi üzrə, o cümlədən onların müvəqqəti olduqları ölkədən köçürülməsi üzrə tədbirlər görür.

**Maddə 16.** Azərbaycan Respublikasının hüdudlarından kənarda turizm nümayəndəliyi

Azərbaycan Respublikasının turizm sahəsində müvafiq icra hakimiyyəti orqanı dünya bazarında turizm məhsulunun hərəkətə gətirilməsi, yayılması, satışı məqsədilə Azərbaycan Respublikasının hüdudlarından kənarda qanunvericilikdə müəyyən edilmiş qaydada turizm nümayəndəlikləri yaradır.

**Maddə 17.** Turizm haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasın görə məsuliyyət

Turizm haqqında Azərbaycan Respublikası qanunvericiliyinin pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətlə nəticələnir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 04 iyun 1999-cu il**

# “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

“Turizm haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində: qüvvədə olan qanunvericilik aktlarının “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarını həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 2-ci bəndində “razılaşdırılmaqla” sözündən sonra, 12-ci maddəsinin üçüncü, dördüncü və altıncı hissələrində və 16-cı maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına dair təkliflərini versin; öz səlahiyyətləri daxilində “Turizm haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki: “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 2-ci bəndində “obyektləri” sözündən sonra nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi həyata keçirir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 iyul 1999-cu il.**

# “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

“Turizm haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi məqsədi ilə qərara alıram:

Müəyyən edilsin ki:
“Turizm haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 2-ci bəndində “razılaşdırmaqla” sözündən sonra, 12-ci maddəsinin üçüncü, dördüncü və altıncı hissələrində və 16-cı maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi həyata keçirir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 iyul 2000-ci il**

**ƏLAVƏ 2**

# Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması ilə əlaqədar qərara alıram:

**I.** Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında aşağıdakı dəyişikliklər edilsin:

1. "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli 485 nömrəli Fərmanının 1-ci bəndində "gənclər və idman" sözləri "idman və turizm" sözləri ilə əvəz edilsin;

2. "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 5 iyun tarixli 595 nömrəli Fərmanının 2-ci bəndinin üçüncü abzasında "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm Nazirliyi" sözləri ilə əvəz edilsin;

3. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı"nın 48-ci bəndində "Nazirlər Kabineti yanında Xarici Turizm Şurası" sözləri

“Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi” sözləri ilə əvəz edilsin;

4. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının 2-ci bəndinin on səkkizinci abzasında “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

5. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 dekabr tarixli 47 nömrəli Fərmanının 2-ci bəndinin üçüncü, dördüncü, beşinci və yeddinci abzaslarında, 4-cü və 5-ci bəndlərində “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

6. “Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 17 iyun tarixli 139 nömrəli Fərmanının 1-ci bəndində “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

7. “Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanının 2-4-cü bəndlərində və həmin Fərmanla təsdiq olunmuş “Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı”nda “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

8. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının 2-ci bəndinin ikinci abzasında “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

9. “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli 349 nömrəli Fərmanının 2-ci bəndində və 19-cu bəndinin on birinci abzasında “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

10. “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 376 nömrəli Fərmanının üçüncü abzasında “Nazirlər Kabineti yanında Xarici Turizm Şurası» sözləri “Gənclər, İdman və Turizm Nazirliyi” sözləri ilə əvəz edilsin;

11. “Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 dekabr tarixli 42 nömrəli Sərəncamının 2-ci bəndində “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

12. “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Övladlığa Götürmə Məsələləri Komissiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 52 nömrəli Sərəncamında “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

13. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 155 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Əlilliyin qarşısının alınması və əlillərin reabilitasiyası üzrə 1999-2002-ci illər üçün Dövlət Proqramı”nda “Gənclər və İdman” sözləri “Gənclər, İdman və Turizm” sözləri ilə əvəz edilsin;

14. “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli 416 nömrəli Sərəncamının 1-ci bəndində “Samir Novruzov – Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xarici Turizm Şurasının sədri” sözləri “Əbülfəs Qarayev – Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziri” sözləri ilə əvəz edilsin.

**II.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 4 iyul 2001-ci il**

## ƏLAVƏ 3

# "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Turizm haqqında Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. Qüvvədə olan qanunvericilik aktlarının "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 6-cı bəndində nəzərdə tutulmuş turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması qaydasını müəyyən etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. Öz səlahiyyətləri daxilində "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

2.1. “Turizm haqqında Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 6-cı bəndinin birinci cümləsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi həyata keçirir;

2.2. Həmin qanunun 5-ci maddəsinin 6-cı bəndinin ikinci cümləsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 aprel 2004-cü il**

# ƏLAVƏ 4

## Azərbaycan Respublikasının bəzi nazirliklərinin yenidən təşkil edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində aparılan islahatların davamı olaraq mədəniyyət, gənclərlə iş, idman və turizm sahələrinin idarə edilməsinin təkmilləşdirilməsinin və onun müasir tələblərə uyğun qurulmasının, bu sahələrdə idarəetmənin səmərəliliyinin daha da artırılmasının zəruriliyini nəzərə alaraq və onların struktur optimallığını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Gənclər İdman və Turizm Nazirliyi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yaradılsın.

3. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yaradılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

4.1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin əsasnamələrinin layihələrini təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin strukturları və aparatlarının işçilərinin say həddi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4.5 Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 yanvar 2006-ci il**

## ƏLAVƏ 5

**“Turizm haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə”** Azərbaycan Respublikasının 2007-ci il 5 iyun tarixli 374-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 615 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə qərara alıram:

**1.** “Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 iyun 2008-ci il**

# Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə

**1.** Ümumi müddəalar

**1.1.** Turizm və rekreasiya zonaları insanların əyləncəsini, istirahətini, müalicəsini və sağlamlığını təmin edən, müvafiq turizm infrastrukturuna malik olan, xüsusi ekoloji, rekreasiya, tarixi, mədəni əhəmiyyət daşıyan təbiət və mədəniyyət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, milli və mədəni irsi qoruma, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmə, maarifçilik, elmi və digər məqsədlər üçün istifadə olunan, regionların

sosial-iqtisadi inkişafına kömək edən və müvafiq idarəetmə qurumlarına malik ərazilərdir.

**1.2.** Turizm və rekreasiya zonaları turizm zonası, rekreasiya zonası və turizm və rekreasiya zonası formalarında yaradıla bilər.

**1.3.** Turizm və rekreasiya zonalarına Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin daimi istifadəsinə verilmiş torpaqlarla yanaşı, zonanın hüdudları daxilində yerləşən məqsədli təyinatından və hüquqi rejimindən asılı olmayaraq digər dövlət torpaqları, habelə torpaq sahələri üzərində mövcud olan müvafiq hüquqlara xitam verilmədən bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan torpaq sahələri də daxil edilə bilər.

**1.4.** Turizm və rekreasiya zonalarından Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə müəyyən olunmuş tələblərə əməl etmək şərti ilə istirahət, əyləncə, rekreasiya, turizm fəaliyyəti, təbiətin qorunması, milli-mədəni irsin saxlanılması, elmi tədqiqat, təlim-tərbiyə, turizm statistikası və turist xidmətinin keyfiyyətinə nəzarət məqsədləri üçün istifadə edilə bilər.

**1.5.** Turizm və rekreasiya zonalarında turizm obyektlərinin, təbiət və mədəniyyət komplekslərinin qorunması və bərpası, inkişaf planlarına uyğun infrastrukturun yaradılması zamanı bu Əsasnamədə müəyyən edilmiş tələblərə zidd olmayan digər fəaliyyət növləri də həyata keçirilə bilər.

**1.6.** Turizm və rekreasiya zonalarının ərazisində turizm və (və ya) rekreasiya xidməti obyektləri, habelə turistlərə göstərilən xidmətlər kompleksinə daxil olan digər xidmət obyektləri Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərirlər.

**1.7.** Turizm və rekreasiya zonalarının ərazisində yerləşən və üzərindən tədris-məşq, turist cığırlarının və yolların keçdiyi torpaq sahələrinin mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçi-

lərinə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müvafiq kompensasiya ödənilir.

**2.**Turizm və rekreasiya zonalarının yaradılmasının məqsədləri:

2.0. Turizm və rekreasiya zonalarında aşağıdakılara nail olunmalıdır:

2.0.1. istehlakçıların təhlükəsizliyinin təmin edilməsinə;

2.0.2. turizm, istirahət və rekreasiya üçün münbit şəraitin yaradılmasına;

2.0.3. turizmin davamlı inkişafının və yerli sosial-iqtisadi layihələrdə turizm və rekreasiya zonalarının iştirakının təmin edilməsi vasitəsilə regionlarda sosial-iqtisadi inkişafa və milli-mədəni irsin saxlanılmasına nail olunmasına;

2.0.4. turizmin köməyi ilə tarix və mədəniyyət abidələinin, nadir təbiət mənzərələrinin, spesifik turist xidməti obyektlərinin, milli-mədəni irsin qorunmasının və təbliğinin təmin edilməsinə;

2.0.5. ətraf mühitin qorunması və ekoloji tarazlığın saxlanmasına şərait yaradan müxtəlif turizm növlərinin yaradılması və təbliğinə;

2.0.6. müvafiq turizm və (və ya) rekreasiya zonasına daxil olan torpaq sahələri üzərində hüquqları olan şəxslərlə razılaşdırılaraq beynəlxalq standartlara cavab verən və keyfiyyətli turist xidməti göstərə bilən turizm infrastrukturunun yaradılmasına;

2.0.7. turizm və rekreasiya zonalarının ərazisində rəqabət qabiliyyətli və əhalinin bütün təbəqələrinə turist xidməti göstərə bilən turizm bazarının yaradılmasına;

2.0.8. turizm sahəsində statistikanın, marketinq və digər araşdırmaların aparılmasına;

2.0.9. daxili və xarici sərmayəçilərin (investorların) cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına;

2.0.10. turizm bazarının tələbinə uyğun olaraq turizm məhsullarının yaradılması və mövcud olan imkanların genişləndirilməsinə;

2.0.11. turizm və rekreasiya zonalarında turizm xidməti sahəsini yaxşılaşdırmaq məqsədi ilə nəqliyyat, kommunikasiya və informasiya vasitələrinin inkişaf etdirilməsinə;

2.0.12. turizm və rekreasiya zonalarında fəaliyyət göstərən müəssisələrin iştirakı ilə ərazinin sosial-iqtisadi inkişafına istiqamətləndirilmiş layihələrin həyata keçirilməsinə;

2.0.13. turizm və rekreasiya zonalarında yeni iş yerlərinin yaradılması, əhalinin sosial-iqtisadi durumunun yaxşılaşdırılmasına;

2.0.14. turizm və rekreasiya zonaları sahəsində dövlət tənzimlənməsi və nəzarətinin həyata keçirilməsinə.

**3.** Turizm və rekreasiya zonalarının yaradılması

3.1. Turizm və rekreasiya zonaları bu Əsasnamənin 1-ci bəndində nəzərdə tutulmuş tələblərə uyğun gələn və turizmin müxtəlif növlərinin inkişafı üçün əlverişli olan ərazilərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təqdimatına əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılır.

3.2. Turizm və rekreasiya zonalarına Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş aşağıdakı zonalara aid sahələr daxil edilə bilər:

3.2.1. arxeoloji, memarlıq abidələri və onların qalıqları müəyyən olunmuş zonalar;

3.2.2. meşə fondu zonaları;

3.2.3. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (zonası);

3.2.4. dağ zonaları;

3.2.5. qanunvericilikdə nəzərdə tutulmuş hallarda digər ərazilər.

3.3. Turizmin davamlı inkişafını təmin etmək üçün turizm və rekreasiya zonalarına yaxın ərazilərdə istənilən növ

turizm və (və ya) rekreasiya üzrə fəaliyyətin həyata keçirilməsi zərurəti yarandıqda, həmin ərazilər hesabına müəyyən olunmuş qaydada turizm və (və ya) rekreasiya zonasının sahəsi genişləndirilə bilər.

**4.** Turizm və rekreasiya zonalarında tətbiq edilən mühafizə rejiminin xüsusiyyətləri:

4.1. Turizm və rekreasiya zonalarında mövcud olan təbiət, tarix-mədəniyyət, şəhərsalma və memarlıq, təsərrüfat xüsusiyyətləri nəzərə alınaraq qanunvericiliyə uyğun olaraq xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq oluna bilər. Bu fəaliyyət zonalarına aşağıdakılar daxildir:

4.1.1. tarix və mədəniyyət abidələrinə və arxeoloji qazıntılara aid edilən, xüsusi mühafizə rejimi tətbiq olunan zonalar;

4.1.2. milli parkların və qoruqların ərazisindəki turizm sahələri, təbiət abidələri və meşə örtüyü olan xüsusi mühafizə rejimi tətbiq edilən zonalar;

4.1.3. müalicə və rekreasiya zonaları;

4.1.4. turist bazalarının, qış dağ-xizək düşərgələrinin, istirahət mərkəzlərinin, sanatoriyaların, mehmanxanaların və ona bərabər tutulan yerləşdirmə obyektlərinin fəaliyyət göstərdiyi zonalar, o cümlədən kurortlar.

4.2. Xüsusi mühafizə rejimi tətbiq edilən ərazilər və orada yerləşən obyektlər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qorunan obyektin xarakterinə uyğun mühafizə olunur.

4.3. Turizm və rekreasiya zonalarına istirahət və rekreasiya məqsədləri üçün gələn istehlakçılara həmin zonada təklif olunan bütün növ turist və rekreasiya xidmətindən istifadə etmək imkanı yaradılır.

4.4. Turizm və rekreasiya zonalarında müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, vətənpərvərlik ruhunda təlim-tərbiyə və sınaq-təcrübə tədbirləri keçirilə bilər.
4.5. Turizm və rekreasiya zonalarında xüsusi mühafizə rejimini

və qaydalarını pozan şəxslər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

4.6. Turizm və rekreasiya zonalarının ərazisində (bu Əsasnamənin 4.1-ci bəndində nəzərdə tutulmuş bütün fəaliyyət zonalarında) aşağıdakılar qadağan edilir:

4.6.1. təbiət komplekslərinin, tarix və mədəniyyət abidələrinin, mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərinin təhlükəsizliyini təhdid edən hər hansı bir fəaliyyətin həyata keçirilməsi və ya hərəkətə yol verilməsi;

4.6.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

4.6.3. xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası ilə bağlı və bu qəbildən olan digər fəaliyyət növlərinin həyata keçirilməsi;

4.6.4. qanunvericiliyə uyğun olaraq dövlət ehtiyacları üçün zəruri hesab edilən hallar istisna olmaqla, turizm və rekreasiya zonalarının ərazisində Baş inkişaf planında nəzərdə tutulmamış, turizm və ya rekreasiya fəaliyyəti ilə bağlı olmayan bərk örtülü yolların, boru kəmərlərinin, elektrik, neft buruqları və onların infrastrukturu və digər kommunikasiya xətlərinin çəkilməsi;

4.6.5. turizm və rekreasiya zonalarının ərazisində Cari inkişaf planında nəzərdə tutulmamış və ya zonanın idarəetmə orqanı ilə razılaşdırılmamış yerlərdə treyler yaşayış-istirahət qəsəbələrinin, piyada marşrutların yaradılması, dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması;

4.6.6. müvafiq fəaliyyət növünə xüsusi razılığı (lisenziyası) olmayan və Baş inkişaf planında nəzərdə tutulmayan mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektlərinin fəaliyyəti;

4.6.7. ətraf mühitə dəyən ziyanı minimuma endirən müvafiq avadanlıqlarla təchiz olunmayan tikili və obyektlərin istifadə edilməsi;

4.6.8. yerli fauna və flora növlərinə mənfi təsir edən fəaliyyət növləri;

4.6.9. dövlət ekoloji ekspertizasının müsbət rəyi olmadan təsərrüfatdaxili layihələrin həyata keçirilməsi.

4.7. Turizm və rekreasiya zonalarında aidiyyəti dövlət orqanının rəyi nəzərə alınmaqla, ərazilərin ekoloji, sanitariya-epidemioloji, elmi, estetik, mədəni, turizm və rekreasiya dəyərlərini aşağı sala bilən digər fəaliyyət növləri də qanunvericiliyə uyğun məhdudlaşdırıla və ya qadağan edilə bilər.

**5.** Turizm və rekreasiya zonalarının elmi tədqiqat və marketinq-araşdırma fəaliyyəti:

5.1. Turizm və rekreasiya zonalarında elmi tədqiqat rekreasiya məqsədi ilə istifadə olunan şəraitdə ekoloji, sanitariya-epidemioloji vəziyyətin proqnozlaşdırılmasına, qiymətləndirilməsinə, səciyyəvi, nadir təbiət və şəhərsalma, memarlıq komplekslərinin elmi əsaslandırılmış üsullarla qorunmasına yönəldilir.

5.2. Turizm və rekreasiya zonalarında elmi tədqiqatlar Azərbaycan Milli Elmlər Akademiyası, elmi tədqiqat institutları, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları, turizm, şəhərsalma və memarlıq sahəsində çalışan tədqiqatçılar tərəfindən aparıla bilər.

5.3. Marketinq-araşdırma və proqnozlaşdırma fəaliyyəti ilə bağlı turizm və rekreasiya zonasının hər birində turizm informasiya mərkəzləri yaradılır. Həmin mərkəzlər vasitəsilə zonanın turizm və (və ya) rekreasiya potensialının öyrənilməsi, turist xidmətlərinin təşviqi həyata keçirilir və turizm-məlumat bazasının yaradılması təşkil olunur.

5.4. Turizm və rekreasiya zonalarının rəhbərliyinə turizm və rekreasiya zonalarının ərazisində yerləşən turist xidməti obyektləri tərəfindən marketinq-araşdırma və proqnozlaşdırma işlərinin aparılması üçün statistik məlumatların verilməsi məcburidir.

**6.** Turizm və rekreasiya zonalarının idarə olunması

6.1. Turizm və rekreasiya zonalarının idarə olunması həmin zonalarda turizm fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsindən, turizm fəaliyyətinin dövlət tənzimlənməsindən, habelə bu fəaliyyətin istiqamətləndirilməsindən ibarətdir və heç bir halda həmin ərazidə mülkiyyət və digər əşya hüquqlarının məhdudlaşdırılmasına yönəldilə bilməz.

6.2. Turizm və rekreasiya zonaları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bu Əsasnaməyə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq idarə olunur.

6.3. Turizm və rekreasiya zonalarının, o cümlədən ictimai əsaslarla və (və ya) təsərrüfathesabı prinsipi ilə idarə edilməsi üçün aşağıdakı üsullardan istifadə oluna bilər:

6.3.1. turizm və (və ya) rekreasiya zonasında bilavasitə idarəçiliyin tətbiq edilməsi;

6.3.2. turizm və (və ya) rekreasiya zonası Şurasının (bundan sonra - Şura) yaradılması və həmin Şuranın fəaliyyətinin təmin edilməsi;

6.3.3. turizm və (və ya) rekreasiya zonasının idarəetməyə verilməsi.

6.4. Turizm və rekreasiya zonaları bu Əsasnamənin

6.3.1-ci yarımbəndinə uyğun olaraq idarə edildikdə, turizm və rekreasiya zonalarında turizm fəaliyyətinə dövlət nəzarətinin və tənzimlənməsinin həyata keçirilməsi və turizm fəaliyyətinin istiqamətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri tərəfindən təsdiq edilmiş Əsasnamə əsasında fəaliyyət göstərən xüsusi struktur vahidi yaradılır. Turizm və (və ya) rekreasiya zonalarını idarə edən müvafiq qurum kommersiya fəaliyyəti ilə məşğul ola bilməz.

6.5. Turizm və rekreasiya zonaları bu Əsasnamənin

6.3.2-ci yarımbəndinə uyğun olaraq idarə edildikdə, müvafiq turizm və (və ya) rekreasiya zonası yaradıldığı gündən

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilmiş müddətdə kollegial orqan olan Şura yaradılır.

6.6. Şuranın tərkibinə aşağıdakı şəxslər daxil edilirlər:

6.6.1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri;

6.6.2. turizm və (və ya) rekreasiya zonasının əhatə etdiyi torpaq sahələrinin yerləşdiyi ərazilər üzrə bələdiyyə nümayəndələri;

6.6.3. zəruri hallarda turizm və (və ya) rekreasiya zonasına daxil olan torpaq sahəsinin mülkiyyətçisi və ya onun nümayəndəsi, mülkiyyətçi dövlət olduqda müvafiq dövlət orqanının nümayəndəsi, torpaq sahəsinin əlavə olaraq sahibi, istifadəçisi və ya sərəncamçısı olduqda, həmin şəxslər və ya onların nümayəndəsi;

6.6.4. turizm və (və ya) rekreasiya zonasının inkişafına sərmayə (investisiya) qoymuş şəxslər (belə şəxslər yalnız onların sərmayə qoyuluşu haqqında təklifləri layihə şəklində müvafiq olaraq Şura və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edildikdən sonra Şurada təmsil olunmaq hüququ qazanırlar).

6.7. Eyni bir şəxsin, habelə dövlət və ya bələdiyyə orqanının bir neçə əsasla Şurada təmsil olunmaq hüququ olduqda, o, bir və ya bir neçə üzvlə təmsil oluna bilər.

6.8. Şura aşağıdakı səlahiyyətlərə malikdir:

6.8.1. turizm və (və ya) rekreasiya zonasının Baş inkişaf planının layihəsinin hazırlanması və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilməsi;

6.8.2. turizm və (və ya) rekreasiya zonasının Cari inkişaf planının qəbul edilməsi və həmin planın bir nüsxəsinin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilməsi;

6.8.3. potensial sərmayəçilərin (investorların) müvafiq zona üzrə layihələrin həyata keçirilməsinə cəlb edilməsi və sər-

mayə (investisiya) qoymaq arzusunda olan şəxslərlə danışıqların aparılması;

6.8.4. dövlət və bələdiyyə orqanları, digər müəssisə və təşkilatlarla və ayrı-ayrı sərmayəçilərlə birgə layihələrin hazırlanması və ya təklif olunan layihələrin müzakirəsi;

6.8.5. turizm və (və ya) rekreasiya zonasının pasportunun hazırlanması;

6.8.6. müvafiq turizm və (və ya) rekreasiya zonasında həyata keçirilən fəaliyyətin öz səlahiyyətləri daxilində yoxlanılması və təhlil edilməsi (monitorinq);

6.8.7. müvafiq turizm və (və ya) rekreasiya zonasında həyata keçirilən fəaliyyətlə bağlı məlumatların (o cümlədən monitorinq nəticələrinin) qanunvericiliyin tələbləri nəzərə alınmaqla dərc edilməsi;

6.8.8. turizm və (və ya) rekreasiya zonasında icra orqanları yaradıldıqda, bu orqanlara icrası məcburi olan göstərişlərin verilməsi;

6.8.9. turizm və (və ya) rekreasiya zonasının idarə edilməsi sahəsində müvafiq qayda və təlimatların hazırlanması və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təsdiqinə təqdim edilməsi;

6.8.10. zəruri hallarda, turizm və (və ya) rekreasiya zonasında müvafiq layihəni həyata keçirən şəxslə (şəxslərlə) torpaq üzərində hüquqları olan şəxslər arasında müvafiq müqavilənin bağlanılmasının təklif edilməsi;

6.8.11. Şuranın öz təşəbbüsü ilə hazırlanmış layihələr üzrə müsabiqələrin keçirilməsi, maliyyə mənbəyinin tapılması üçün tədbirlərin görülməsi;

6.8.12. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş, eləcə də Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Şuraya həvalə edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

6.9. Zərurət olduqda, Şuranın təklifi əsasında turizm və (və ya) rekreasiya zonasının cari idarə edilməsinin həyata

keçirilməsi məqsədilə turizm və (və ya) rekreasiya zonasının icra orqanları yaradıla bilər.

6.10. Şura və turizm və (və ya) rekreasiya zonasının icra orqanları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilən Əsasnaməyə uyğun fəaliyyət göstərirlər.

6.11. Bu Əsasnamənin 6.3.3-cü yarımbəndinə uyğun olaraq, turizm və rekreasiya zonalarının idarə olunması və inkişaf etdirilməsi, qanunvericiliyə uyğun olaraq müsabiqə keçirilməklə kənar idarəçiyə həvalə edilə bilər.

6.12. Bu Əsasnamənin 6.11-ci bəndində nəzərdə tutulmuş halda, Şuranın rəyi əsasında, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müvafiq kənar idarəçi ilə turizm və (və ya) rekreasiya zonalarının idarə olunmasına və inkişafına dair müqavilə bağlayır. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi kənar idarəçinin fəaliyyətinə nəzarət edir və həmin kənar idarəçinin müvafiq qərarlarını ləğv etmək hüququna malikdir.

6.13. Kənar idarəçi turizm və (və ya) rekreasiya zonalarının idarə olunması üçün əqdlər bağlayır, zonada həyata keçirilən fəaliyyətlə bağlı marketinq işini və zonaya daxil olan obyektlərin mühafizəsini təşkil edir, layihələr hazırlayıb Şuraya təqdim edir, sərmayəçiləri zonanın inkişafına cəlb edir, qanunvericiliklə qadağan edilməyən səlahiyyətləri zonanın idarə olunmasına və inkişafına dair müqaviləyə uyğun həyata keçirir.

**7.** Baş və Cari inkişaf planları. Turizm və rekreasiya zonasının pasportu

7.1. Baş və Cari inkişaf planları turizm və (və ya) rekreasiya zonalarının inkişafı məqsədi ilə tərtib edilir.

7.2. Baş inkişaf planı müəyyən dövr ərzində ərazinin mövcud potensialına uyğun olaraq turizm və (və ya) rekreasiya zonasının inkişafını, burada tikililərin və qurğuların inşasını və yerləşdirilməsini, avtomobil və digər bərk örtüklü yolların çəkilməsini və zonada əhəmiyyətli dəyişikliklərə səbəb ola

bilən digər mühüm işlərin görülməsini nəzərdə tutan, bu Əsasnamənin 7.4-cü bəndi ilə müəyyən edilmiş qaydada təsdiq edilən sənəddir.

7.3. Baş inkişaf planında müvafiq turizm və (və ya) rekreasiya zonasının mövcud potensialına uyğun olaraq aşağıdakı istiqamətlərdə inkişafı nəzərdə tutulmalıdır:

7.3.1. müvafiq standartlara cavab verən turist xidməti (yerləşdirmə, iaşə, nəqliyyat, ekskursiya, təşviqat və məlumatlandırma) infrastrukturunun yaradılması;

7.3.2. turizm bazarının tələbatına uyğun turizm növlərinin yaradılması və genişləndirilməsi;

7.3.3. turizm və (və ya) rekreasiya zonasının inkişafı və idarə edilməsi üçün maliyyə mənbələrinin müəyyən edilməsi və aidiyyəti üzrə sərmayənin (investisiyanın) cəlb olunması;

7.3.4. turistlərin təhlükəsizliyini təmin edən tədbirlərin həyata keçirilməsi;

7.3.5. müasir turizm bazarında rəqabətə davamlılığı təmin edən marketinq siyasətinin qurulması;

7.3.6. turizmin davamlı inkişafını, yerli əhalinin sosial-iqtisadi durumunu və regionlarda yeni iş yerlərinin yaradılmasını təmin edən fəaliyyətin genişləndirilməsi.

7.4. Baş inkişaf planı Şuranın təklifinə əsasən, dövlət proqramlarının və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının turizm sahəsinə dair müddəaları nəzərə alınmaqla Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilir. Baş inkişaf planı 5 illik dövrü əhatə edir.

7.5. Cari inkişaf planı müəyyən dövr ərzində turizm və (və ya) rekreasiya zonasında piyada və mexaniki nəqliyyat vasitələrinin konkret marşrutlarını, cığırların və digər bərk örtüyü olmayan yolların çəkilməsini, yüngül konstruksiyaların və reklam lövhələrinin quraşdırılmasını, onların yerləşdirilməsini və zonada əhəmiyyətli dəyişikliklərə səbəb olmayan digər az əhəmiyyətli işlərin görülməsini nəzərdə tutan, Şura tərəfindən təsdiq edilən sənəddir.

7.6. Cari inkişaf planı 1 illik dövrü əhatə edir. Cari inkişaf planları Baş inkişaf planına uyğun olaraq, Baş inkişaf planının təsdiq edildiyi gündən sonra 3 aydan gec olmayaraq qəbul edilir.

7.7. Hər bir turizm və (və ya) rekreasiya zonası pasportla təmin edilir. Zonanın pasportunda mövcud turist xidməti obyektlərinin və turizm və (və ya) rekreasiya zonasında yaradılması nəzərdə tutulan obyektlərin yerləşdirilməsi, nəqliyyat yolları, piyada və mexaniki nəqliyyat vasitələrinin marşrutları göstərilməlidir.

7.8. Turizm və (və ya) rekreasiya zonasının pasportu 3 bölmədən ibarət aşağıdakı qaydada tərtib və təsdiq edilir:

7.8.1. birinci bölmə müvafiq turizm və (və ya) rekreasiya zonasında mövcud olan vəziyyəti əks etdirir. Bu bölmənin layihəsi Şura tərəfindən qəbul edilib, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin təsdiqinə təqdim edilir. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həmin layihəni təqdim edilmiş məzmunda qəbul edə və ya ona əlavə və dəyişikliklərin edilməsini, o cümlədən müvafiq araşdırmaların aparılmasını təklif edərək Şuraya geri qaytara bilər;

7.8.2. ikinci bölmə Baş inkişaf planından, habelə ona əlavə olunan qrafik və digər sənədlərdən ibarətdir;

7.8.3. üçüncü bölmə Cari inkişaf planından və ona əlavə olunan yekun qrafik və digər sənədlərdən ibarətdir. Cari inkişaf planı təsdiq edildikdən sonra inkişaf planları nəzərə alınmaqla planları əks etdirən yekun qrafik və digər sənədlər (sxemlər, xəritələr, təsvirlər və s.) hazırlanır və Şura tərəfindən təsdiq edilərək müvafiq turizm və (və ya) rekreasiya zonasının pasportuna əlavə edilir;

7.8.4. pasportun yekun redaksiyası bütün əlavə və qoşmalarla birlikdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınır və zonanın müvafiq məsul şəxsində saxlanılır.

7.9. Pasporta əlavə və dəyişikliklər onun düzəlişlərə məruz qalan hissəsi üçün nəzərdə tutulmuş qaydada tətbiq edilir və pasportun yeni redaksiyası dövlət qeydiyyatına alınır.

**8.** Turizm və rekreasiya zonalarına dövlət nəzarəti

8.1. Turizm və rekreasiya zonalarına dövlət nəzarətinin məqsədi həmin ərazilərin vəziyyətinə, mühafizəsi, qorunması, bərpası və istifadəsi üzrə tədbirlərin yerinə yetirilməsinə nəzarət etmək, qanunvericiliklə müəyyən edilmiş qaydalara və tələblərə əməl olunmasını təmin etməkdir.

8.2. Turizm və rekreasiya zonalarında həyata keçirilən idarəetmə və turizm fəaliyyətinə dövlət nəzarəti Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilir.

## ƏLAVƏ 6

# “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərbaycan kurortları” Dövlət Proqramı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 fevral tarixli 2002 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1**. “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

**2**. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3**. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 fevral 2009-cu il**
**№ 125**

Azərbaycan Respublikası
Prezidentinin 2009-cu il 6 fevral
tarixli 125 nömrəli Sərəncamı ilə
təsdiq edilmişdir

# 1. ÜMUMİ ƏSASLAR

## 1.1. Mövcud vəziyyət

Kurort işi Azərbaycan Respublikasında ənənəvi olaraq dövlətin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsini təşkil etmişdir. Bu sahədə aparılmış dövlət siyasəti nəticəsində inkişaf etmiş və kütləvi tələbatı ödəyən kurort kompleksi yaradılmışdır. Kurort işinin təşkili iqtisadi və sosial əhəmiyyətli fəaliyyət olaraq ölkənin bir çox regionlarının inkişafını, infrastrukturunun yaradılmasını, əhalinin məşğulluğunu, xidmət sahələrinin inkişafını təmin etmişdir. Ölkədə yaradılmış sanatoriya-kurort sistemi insanların istirahətinin, sağlamlaşdırılmasının və müalicəsinin təşkili baxımından olduqca vacib ümummilli sosial-iqtisadi funksiyaları da yerinə yetirmişdir.

Keçən əsrin 80-ci illərinin sonunda - 90-cı illərin əvvəllərində, Azərbaycanın siyasi, iqtisadi və sosial həyatında baş verən proseslər kurort kompleksinin təşkili, idarə edilməsi, maliyyələşdirilməsi, insanların istirahətinin, müalicəsinin və sağlamlaşdırılmasının təşkili, kurort texnologiyalarının tətbiqi, kadr təminatı sahəsinə təsirsiz ötüşməmiş, nəticədə mərkəzləşdirilmiş kurort kompleksinin və sanatoriya-kurort xidmətlərinin ümumdövlət sisteminin ahəngdar fəaliyyəti pozulmuşdur.

Bu kompleksə olduqca böyük zərər Ermənistanın Azərbaycan Respublikasına təcavüzü nəticəsində vurulmuşdur. Azərbaycanın 20 faiz ərazisi işğal olunmuş, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, həmin ərazilərdə unikal təbii xüsusiyyətlərə malik kurort yerləri dağıdılmış, daimi yaşayış yerlərindən didərgin düşmüş soydaşlarımız yaşayış yerləri ilə təmin edilmək məqsədi ilə sovet dövründə inşa edilmiş sanatoriya-kurort müəssisələrindəki çarpayı fondunun təxminən 50 faizi nisbətində ölkənin digər ərazilərində yerləşən sanatoriya, pansionat və istirahət evlərində məskunlaşdırılmışdır.

Hazırda Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində ayrı-ayrı bölgələrdə kurortların dirçəldilməsi istiqamətində həyata keçirilən tədbirlərlə yanaşı, aparılan işlərin səviyyəsinin müasir tələblərə uyğunlaşdırılmasına ehtiyac vardır.

Təcrübə göstərir ki, sanatoriya-kurort müalicəsi əhalinin sağlamlığının qorunması sahəsində olduqca mühüm yer tutur. Bu sağlamlıq ocaqlarında aparılan müalicə nəticəsində xəstələrdə reabilitasiya prosesi sürətlənir, xəstəliklərin kəskinləşməsi prosesinin qarşısı alınır və xəstələr normal həyata qayıtmaq imkanı əldə edirlər. Səmərəli sanatoriya-kurort müalicəsi böyüklərdə və uşaqlarda xəstəliklərin kəskinləşməsi hallarını, habelə sanatoriyalarda reabilitasiya keçmiş xəstələrdə əmək qabiliyyətinin müvəqqəti və daimi itirilməsi hallarının sayını dəfələrlə azaldır.

Sanatoriya-kurort müalicəsinə əlillərin, xəstələrin, ekoloji cəhətdən çirkli zonalarda yaşayanların, uşaqların xüsusilə böyük ehtiyacı vardır. Əhalinin bu kateqoriyalarının sanatoriya -kurort müalicəsinə tələbatı sanatoriya-kurort şəbəkəsinin inkişafında nəzərə alınmalı, uşaq sanatoriyaları və istirahət düşərgələri şəbəkəsi genişləndirilməli, mövcud uşaq sanatoriyaları müasir avadanlıqlarla təmin olunmalı, onların maddi-texniki bazası sanitar norma və qaydalara uyğunlaşdırılmalı, xəstə və sağlamlıq imkanları məhdud uşaqların tibbi, psixoloji və sosial reabilitasiyası üçün optimal şərait yaradılmalıdır.

Azərbaycan Respublikasında mövcud sanatoriya-kurort şəbəkəsinin yenidən təşkili və yaradılacaq müəssisələrin fəaliyyətinin müasir beynəlxalq tələblər səviyyəsində qurulması mühüm vəzifələrdəndir. "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nda (bundan sonra - Dövlət Proqramı) həmin vəzifələrin yerinə yetirilməsi ilə bağlı kompleks tədbirlər nəzərdə tutulmuşdur.

## 1.2. Azərbaycan kurortlarının təsnifatı

Kurort təbii müalicə ehtiyatlarına malik olan və həmin ehtiyatlardan bərpa, profilaktika və müalicə məqsədi ilə istifadə etmək üçün zəruri şəraiti olan ərazi hesab olunur. Azərbaycanın ərazisi kurortlarla zəngindir.

Belə ərazilərdə istirahət və müalicəni təmin edən müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanitariya mühafizə zonaları və digər kurort infrastrukturu təşkil olunur.

Təbii müalicə ehtiyatlarına görə Azərbaycanda kurortların balneoloji, iqlim, müalicəvi palçıq kurortları və Naftalan nefti kurortu kimi növləri mövcuddur.

Balneoloji kurortlara əsasən təbii mineral sulardan istifadə olunan kurortlar aiddir. Azərbaycanın ərazisində müalicəvi xüsusiyyətlərinə görə dünyada qəbul olunan səkkiz qrup mineral suyun hər biri mövcuddur.

İqlim kurortları müalicəvi iqlimə malikdir. İqlim kurortları üçün səciyyəvi olan müalicəvi amillər (dəniz suyu, günəş vannaları, isti qum vannaları, dağ iqlimi və s.) bir çox xəstəliklərin profilaktikası və müalicəsi baxımından əhəmiyyətli hesab olunur.

Müalicəvi palçıq kurortlarında palçıqdan, əsasən lil palçığından (Masazır və Zığ gölünün palçıqları) və təpə (vulkan) palçıqlarından istifadə yolu ilə müalicə aparılır.

Naftalan nefti kurortunda unikal müalicə amilli olan və yüksək təsirə malik Naftalan nefti ilə müalicə aparılır.

Coğrafi yerləşməsinə görə Azərbaycanın kurort resursları aşağıdakı zonalara bölünür:

Böyük Qafqaz zonasında otuzdan artıq termal və soyuq müxtəlif konsentrasiyalı kükürdlü və üzvi maddələr tərkibli zəif minerallaşmış mineral su yataqları mövcuddur. Azərbaycanda geniş yayılmış palçıq vulkanları da bu zonada yerləşir.

Kiçik Qafqaz zonası əsasən karbon turşulu mineral sularla zəngin balneoloji kurortlarla fərqlənir. Şəfalı iqlimə malikdir. Bu zonada nadir təbii müalicə amili kimi tanınan Naftalan nefti mədənləri yerləşir.

Xəzər dənizinin sahil zonası iqlim və balneoloji xüsusiyyətlərinə görə üç kurort sahəsinə bölünür. Xudat-Yalama zolağı (Nabran kurortu) qumlu çimərliklər, meşələr, yod-bromlu su ehtiyatları ilə zəngindir. Abşeron yarımadası Mərdəkan, Bilgəh, Zuğulba, Buzovna, Suraxanı kurortlarını əhatə edir. Həmin ərazidə dəniz iqlimi ilə yanaşı Şıx termal sulfidli suyu, çoxsaylı yodlu-bromlu sular kimi müxtəlif mineral sularla müalicə aparılır. Suraxanı kükürdlü suları, Masazır və Zığ lil palçıqları da müalicə üçün istifadə olunur. Lənkəran-Astara subtropik zolağı termal mineral su bulaqları ilə zəngindir.

Mineral sularla zəngin bölgədə (150 su bulaqları) kurort müalicəsi üçün əhəmiyyətli olan Naxçıvan Muxtar Respublikasının Sirab, Badamlı, Vayxır, Darıdağ və Batabat kurortları yerləşir.

Kür-Araz çökəkliyində balneoloji kurortlar yerləşir və mövcud olan metanlı, azotlu, yüksək və çox yüksək minerallaşmış, silisiumlu, yodlu-bromlu termal su ehtiyatları müalicəvi əhəmiyyətə malikdir.

### 1.3. Dövlət Proqramının əsas məqsədi və vəzifələri

Dövlət Proqramının əsas məqsədi Azərbaycanda kurortların, müalicə-sağlamlıq və istirahət ocaqlarının inkişaf etdirilməsindən, onların fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə və tələblər əsasında təşkil olunmasından, ölkə ərazisində mövcud təbii müalicə ehtiyatlarından səmərəli istifadənin təmin edilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıda göstərilən vəzifələrin yerinə yetirilməsi zəruridir:

- kurort fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi;

- kurortların inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlərin görülməsi;

- kurort müəssisələrinin fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi;

- kurort sahəsində özəl sektorun fəaliyyətinin dəstəklənməsi;

- kurort şəbəkəsinin zəruri infrastrukturla, ilk növbədə elektrik enerjisi, qaz, istilik və içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması, kurortların yerləşdiyi bölgələrə gedən yolların əsaslı təmir edilməsi;

- kurort müəssisələri üçün yüksək ixtisaslı kadrların hazırlanması, mövcud mütəxəssislərin əlavə təhsili ilə bağlı tədbirlərin görülməsi;

- kurortologiya sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi;

- beynəlxalq kurort xidmətləri bazarına çıxışın təmin edilməsi üçün reklam-marketinq və digər işlərin həyata keçirilməsi.

**1.4. Dövlət Proqramının həyata keçirilməsinin əsas istiqamətləri və mərhələləri**

Dövlət Proqramının əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinin başlıca istiqamətləri aşağıdakılardır:

- sanatoriya-kurort şəbəkəsinin maddi, elmi, təbii və kadr bazasının inkişaf etdirilməsi;

- sanatoriya-kurort və istirahət ocaqlarının müasir standartlara cavab verməsinin və dünya sanatoriya-kurort xidmətləri bazarına çıxışının təmin edilməsi;

- sanatoriya-kurort şəbəkəsinin müasir mütərəqqi üsullarla idarə olunmasının təmin edilməsi;

- ölkə əhalisinin yerli kurortlardan istifadəsinin genişləndirilməsi, xarici ölkə vətəndaşlarının müalicə və istirahət məq-

sədi ilə Azərbaycan Respublikasına gəlməsinin təmin edilməsi üçün sanatoriya-kurort müalicəsinin səmərəliliyinin artırılması, həmçinin göstərilən xidmətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəldilməsi;

- ölkə ərazisində mövcud təbii müalicə ehtiyatlarının öyrənilməsi və onlardan səmərəli istifadə olunmasının təşkil edilməsi;
- ölkə ərazisində mövcud təbii müalicə ehtiyatlarından istifadə olunması işinə yerli və xarici investorların cəlb olunması;
- əhalinin, o cümlədən aztəminatlı ailələrin ölkə ərazisində sanatoriya-kurort və istirahət ocaqlarından istifadə imkanlarının genişləndirilməsi.

Dövlət Proqramının iki mərhələdə həyata keçirilməsi planlaşdırılır:

birinci mərhələ 2009-2011-ci illəri əhatə edərək ölkədə sanatoriya-kurort şəbəkəsinin inkişaf etdirilməsi sahəsində ilk ən vacib tədbirlərin həyata keçirilməsindən ibarətdir;

2012-2018-ci illəri əhatə edəcək ikinci mərhələdə digər zəruri tədbirlərin, o cümlədən birinci mərhələ üzrə tədbirlərin icrasının nəticələrinə görə müvafiq tədbirlərin həyata keçirilməsi və tamamlanması nəzərdə tutulur.

### 1.5. Dövlət Proqramının maliyyə təminatı

Dövlət Proqramının maliyyə təminatı aşağıdakı maliyyə mənbələri hesabına həyata keçiriləcəkdir:

- dövlət büdcəsinin vəsaitləri;
- dövlət fondlarının vəsaitləri;
- yerli və xarici investorların maliyyə dəstəyi;
- qanunvericiliyə zidd olmayan digər mənbələr.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına yönəldilən dövlət büdcəsi vəsaitlərinin həcmi növbəti illər üçün dövlət büdcəsinin tərtibi prosesində müəyyənləşdiriləcəkdir.

### 1.6. Gözlənilən nəticələr

Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlər nəticəsində aşağıdakılara nail olunması gözlənilir:

-Azərbaycan Respublikasının təbii müalicə ehtiyatlarından səmərəli istifadənin təmin olunması;

-ölkənin sanatoriya-kurort və istirahət ocaqlarının beynəlxalq sanatoriya-kurort xidmətləri bazarına çıxışı;

- ölkənin sanatoriya-kurort şəbəkəsinin cəlbedici imicinin formalaşması və nəticədə onun xidmətlərindən əhalinin, o cümlədən aztəminatlı şəxslərin, ailələrin və xarici ölkə vətəndaşlarının geniş istifadə etməsi;

-əhali arasında müvəqqəti və davamlı əmək qabiliyyətinin itirilməsi hallarının azalması;

-sanatoriya-kurort müəssisələrində profilaktika tədbirlərinin həcmi və keyfiyyətinin artırılması hesabına ürək, qan-damar, nevroloji, periferik sinir sistemi, sümük-əzələ, mədə-bağırsaq, vərəm və digər xəstəliklərin azalması;

- sanatoriya-kurort şəbəkəsinin gəlirliyinin artaraq kurort və sanatoriyalar yerləşən zonalarda, habelə ətrafda yaşayan əhalinin məşğulluğuna və sağlamlığına müsbət təsir göstərməsi, sanatoriya-kurort şəbəkəsi ilə əlaqədə olan iqtisadiyyatın digər sektorlarının inkişafı.

# 2. DÖVLƏT PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİNƏ DAİR TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti (illər və mərhələlər üzrə) | İcraçı qurumlar |
|---|---|---|---|
| **2.1. Kurortların fəaliyyətinin normativ hüquqi bazasının və idarə edilməsinin təkmilləşdirilməsi** | | | |
| 2.1.1. | Kurort xidmətlərinin sertifikatlaşdırılması ilə bağlı təkliflərin hazırlanması | 2009-2011<br>I | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi |
| 2.1.2. | Sanatoriya-kurort müəssisələri üçün bina və qurğuların inşası, infrastruktur təminat, qidalanma, sanitar-gigiyenik, ekoloji və digər normativlərin hazırlanması və təsdiqi | 2009-2011<br>I | Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.1.3. | Azərbaycan Respublikasının kurort fondunun (təbii müalicə ehtiyatlarının, müalicə-sağlamlaşdırma yerlərinin və kurortların) dövlət uçotunun təşkili, təbii müalicə ehtiyatlarının, müalicə-sağlam-laşdırma yerlərinin və kurortların, o | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |

| | | | |
|---|---|---|---|
| | cümlədən müalicəvi palçıq yataqlarının, Naftalan nefti, yatağının, termal su mənbələrinin qorunması ilə bağlı tədbirlərin görülməsi onların istismarına nəzarətin gücləndirilməsi | | |
| 2.1.4. | Təbii müalicə ehtiyat-larının, müalicə-sağ-lamlaşdırma yerlərinin və kurortların sanitariya mühafizəsinin təmin edil-məsinə nəzarətin gücləndi-rilməsi | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi |
| 2.1.5. | Kurort xidmətlərinin marketinqi, ölkə daxilində və xarici ölkələrdə reklamı ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.1.6. | Kurortların yerləşdiyi ərazilərdə tarixi abidələr, digər görməli yerlərlə bağlı turist marşrutlarının müəyyən edilməsi, məlu-mat kitabçalarının çap olunması | 2009-2018<br>I, II | Mədəniyyət və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **2.2. Kurortların və sanatoriya-kurort müəssisələrinin yaradılması, yenidən qurulması və inkişafı** | | | |
| 2.2.1. | Böyük və Kiçik Qafqaz zonalarında, Xəzər dənizinin sahil zonasında, Naxçıvan Muxtar Respub-likasının ərazisində və Kür-Araz çökəkliyində müasir tələblərə cavab verən balneoloji, iqlim, | 2009-2018<br>I, II | İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi |

| | | | |
|---|---|---|---|
| | müalicəvi palçıq kurortlarının yaradılmasının dəstəklənməsi | | |
| 2.2.2. | Sanatoriya-kurort müəssisələrində məskunlaşmış qaçqın və məcburi köçkünlərin mərhələlərlə yeni salınan qəsəbələrə köçürülməsi üçün zəruri tədbirlərin görülməsi | 2009-2011<br>I | Nazirlər Kabineti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və digər aidiyyəti orqanlar (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.2.3. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan sanatoriyalarda təmir, bərpa və yenidənqurma işlərinin aparılması, zərurət yarandıqda, həmin obyektlərin qanunvericiliyə uyğun olaraq özəlləşdirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi, Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi |
| 2.2.4. | "Naftalan" kurortunun yenidən qurulması ilə bağlı müvafiq şəhərsalma sənədlərinin təsdiqi və həmin ərazidə beynəlxalq tələblərə cavab verən sanatoriya-kurort müəssisələrinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2009-2018<br>I, II | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təklifləri nəzərə alınmaqla) |
| 2.2.5. | Mövcud kurort müəssisələrinin yenidən qurulması, idarə edilməsi və xidmətlərin təşkili işinə yerli və xarici investorların | 2009-2018<br>I, II | İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi (Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının |

| | | | |
|---|---|---|---|
| | cəlb edilməsi | | təklifləri nəzərə alınmaqla) |
| **2.3. Sanatoriya-kurort müəssisələrinin infrastruktur təminatının yaxşılaşdırılması** | | | |
| 2.3.1. | Sanatoriya-kurort müəssisələrinin etibarlı elektrik enerjisi, qaz, isti və soyuq su, istilik təchizatı, kanalizasiya sistemlərinin bərpası, yenidən qurulması və inşası sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi | 2009-2018 I, II | "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, Dövlət Neft Şirkəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti, yerli icra hakimiyyəti orqanları |
| 2.3.2. | Sanatoriya-kurort müəssisələrinə gedən yolların bərpası, yenidən qurulması, müvafiq yaşayış məntəqələrində müasir tipli avtovağzalların inşası, yol boyu məlumat nişanlarının quraşdırılması | 2009-2018 I, II | Nəqliyyat Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 2.3.3. | Sanatoriya-kurort müəssisələrinin yaxınlığında nəqliyyat vasitələrinin saxlanması üçün zəruri texniki xidmətin göstərilməsi şərti ilə avtodayanacaqların, yanacaqdoldurma məntəqələrinin təşkilinin dəstəklənməsi | 2009-2018 I, II | Əmlak Məsələləri Dövlət Komitəsi, Nəqliyyat Nazirliyi, Sənaye və Energetika Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 2.3.4. | Kurort ərazisində yerləşən yaşayış məntəqələrində müasir tələblərə cavab verən müvafiq səhiyyə xidmətlərinin təşkili | 2009-2018 I, II | Səhiyyə Nazirliyi |
| 2.3.5. | Kurort ərazisində yerləşən | 2009-2018 | |

| | | | |
|---|---|---|---|
| | yaşayış məntəqələrində məişət tullantılarının utilizasiyası müəssisələrinin yaradılması ilə bağlı tədbirlərin görülməsi | I, II | İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| **2.4. Sanatoriya-kurort müəssisələrinin kadr və elmi təminatının gücləndirilməsi** | | | |
| 2.4.1. | Sanatoriya-kurort müəssisələrində çalışan həkim, orta tibb işçiləri və digər xidmət personalı üçün ixtisasartırma kurslarının təşkili | 2009-2011<br>I | Səhiyyə Nazirliyi |
| 2.4.2. | Sanatoriya-kurort müəssisələri üçün mütəxəssislərin hazırlanması məqsədi ilə ali təhsil müəssisələrinə qəbul və mütəxəssislərin hazırlanması planlarında müvafiq ixtisasların nəzərdə tutulması | 2009-2011<br>I | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi |
| 2.4.3. | Kurortologiya elminin inkişaf etdirilməsi, müasir standartlara cavab verən yeni müalicə texnologiyalarının hazırlanması və tətbiqi | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi |
| .4.4. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun yenidən qurulması, maddi-texniki bazasının genişləndirilməsi, elmi tədqiqatların aparılması məqsədi ilə kurortlarda elmi-metodik kabinetlərin yaradılması | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi |

| | | | |
|---|---|---|---|
| 2.4.5. | Kurort fondunun genişləndirilməsi və ondan istifadənin səmərəliliyini artırmaq məqsədi ilə elmi tədqiqatların aparılmasının təşkili | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi |
| 2.4.6. | Kurort işinin təşkili və inkişafı üzrə elmi-praktik konfransların və digər tədbirlərin keçirilməsi | 2009-2018<br>I, II | Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |

## ƏLAVƏ 7

# Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında turizmin daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədi ilə qərara alıram:

**1.**2011-ci il Azərbaycan Respublikasında "Turizm ili" elan edilsin.

**2.**Azərbaycan Respublikasının Nazirlər Kabineti 2011-ci ilin Azərbaycan Respublikasında "Turizm ili" elan edilməsinə dair tədbirlər planını hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 fevral 2011-ci il**

## ƏLAVƏ 8

# Turizm bölgələri

Azərbaycan ərazisində ehtiyatlarının müxtəlifliyi, inkişaf səviyyəsi və perspektivliyinə görə seçilən 8 turizm bölgəsi vardır.

**Bakı-Abşeron turizm bölgəsi:**

Azərbaycan Respublikasının şərqində, Xəzər dənizi sahilində yerləşir və əlverişli coğrafi mövqeyə malikdir. Bölgə dərketmə, müalicə-sağlamlıq, idman, işgüzar turizm növləri üzrə ixtisaslaşmışdır. Xəzərin Bilgəh, Nardaran, Pirşağı, Buzovna, Zuğulba, Novxanı sahillərindəki qumlu çimərlikləri turizmin inkişafı baxımından əlverişlidir. Balneoloji iqlimə malik bölgədə "Gənclik" Beynəlxalq Turizm Mərkəzi, "Neptun" turist bazası və sanatoriya-kurort mərkəzləri (Bilgəh, Mərdəkan, Buzovna) fəaliyyət göstərir. Bakıda İçərişəhərin tarixi-memarlıq abidələrindən olan Buxara və Multani karvansaralarından müasir dövrdə turist obyektləri kimi istifadə olunur. Bakı Əyləncə Mərkəzi, "Akva-park", "Luna-park", "Lido" istirahət və əyləncə mərkəzlərində turistlərə yüksək xidmət göstərilir. Dərketmə turizminin mərkəzi olan Bakıda gəlmə və getmə turizmi inkişaf etdirilir. Bakı şəhərində 5462 yerlik 40 TYO (turist yerləşdirmə obyekti) (30 mehmanxana və 10 digər TYO (turist yerləşdirmə obyekti)) fəaliyyət göstərir. Bakıdakı İçərişəhər kompleksi (Şirvanşahlar sarayı, Qız qalası, qədim məscidlər, karvansara və b.), Bibi-Heybət məscidi, "Atəşgah" məbədi, Xəzəryanı müdafiə qurğuları, qalalar, karvansaralar və ovdanlar kompleksi (Mərdəkan qalası və qüllələri, Nardaran və Ramana qalaları) və başqa maraqlı tarixi abidələrdir.

Şəhərdən 70 km cənubda Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Altıağac MP, Abşeron MP, "Cənnət bağı" istirahət zonası (Xızı) yerləşir. Bakının cənub-qərbində "Şıx" kurort kompleksi fəaliyyət göstərir. Turistlər Bakıdan 4 istiqamətdə: res-

publikanın qərb, şimal-qərb, şimal və cənub bölgələrinə səyahətə çıxırlar. Müasir Olimpiya (Bakı, Maştağa) və digər idman kompleksləri idman turizminin inkişafına imkan yaradır.

Quba-Xaçmaz turizm bölgəsi Azərbaycanın şimal-şərqində, Bakı-Xaçmaz turist marşrutunun üstündədir. Turizmin ixtisaslaşması istirahət-əyləncə, dərketmə və idman istiqamətindədir. Landşaftın rəngarəngliyi, iqlimin saflığı, mineral suları və qumlu dəniz sahilləri bölgənin səciyyəvi xüsusiyyətidir. Böyük Qafqazın yüksək dağlarından Bazar-düzü, Şahdağ, Tufandağ və b. bu bölgədədir. Bölgənin Bakıya yaxın olması, aqroiqlim şəraiti turizmin inkişafına geniş imkanlar açır. Şahdağ MP, Təngə-altı dərəsi, Afurca şəlaləsi, "Quba" istirahət mərkəzi, "Balbulaq", "Cənnət bağı" istirahət zonaları (Quba), Yalama və Nabranın qumlu çimərlikləri təbiətsevərləri istirahətə cəlb edir. Beşbarmaq qayası və müdafiə səddinin qalıqları, türbələr (Siyəzən), Şabran, Gilgilçay istehkamlar kompleksi, Çıraqqala (Dəvəçi), Cümə məscidi (Quba) və başqa maraqlı tarixi-memarlıq abidələridir.

Bölgədə turizm istirahət müəssisələrinin şəbəkəsi genişləndirilir. "Xəzər", "Dostluq", "Palermo", "Şəms" turist bazaları, "Malibu", "Atlant", "Qreen-vill", "Palma" istirahət mərkəzləri (Yalama-Nabran sahil zonası), Suvardağ-turizm istirahət zonası (Qusar), Qalaaltı sanatoriyası və müalicə pansionatı (Dəvəçi) fəaliyyət göstərir. Nabranda beynəlxalq əhəmiyyətli turizm mərkəzi yaradılmışdır. Bu bölgəyə istirahət və əyləncə məqsədilə gələn turistlərin sayı ildən-ilə artır. Bölgənin turizm ehtiyatları zəngin və perspektivlidir. Xəzər sahili boyu dağlıq ərazilərdə turizm inkişaf etdirilir.

### Lənkəran-Masallı turizm bölgəsi

Azərbaycanın cənub-şərqində, Bakı-Astara turist marşrutunun üstündədir. Şərqdən Xəzər dənizi ilə əhatə olunur. İran İslam Respublikası ilə həmsərhəd olması iki dövlət arasında

turizm əlaqələrinin genişlənməsinə imkan yaradır. Subtropik iqlimə malik bölgədə turizm ixtisaslaşması istirahət-müalicə və dərketmə istiqamətindədir. İqlimi, zəngin mineral suları balneoloji kurort təsərrüfatının inkişafına əlverişli şərait yaratmışdır. "Meşəçi" qonaq evi, "Xanbulan" istirahət mərkəzi, "Hirkan" moteli (Lənkəran), "Min bir gecə" istirahət ocağı (Astara), "İstisu" sanatoriyası, "Masallı" və "Dəştvənd" hotelləri (Masallı) turistlərin ixtiyarındadır. Zəngin flora və faunaya malik Qızılağac DTQ (dövlət təbiət qoruğu) və Hirkan MP bu bölgədədir. Qədim məscidlər, tarix-diyarşünaslıq muzeyləri, Babək qalası, türbələr, karvansaralar respublikanın mühüm tarixi-memarlıq abidələridir. Bölgə turizmin inkişafı baxımından perspektivlidir. Turizm ehtiyatları yeni istirahət və əyləncə mərkəzlərinin yaradılmasına, Lerikdə dağ turizminin inkişaf etdirilməsinə, Lənkəran və Astarada sanatoriya-kurort şəbəkəsinin genişləndirilməsinə imkan verir.

## Şəki-Zaqatala turizm bölgəsi

Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında, Bakı-Balakən turist marşrutunun üstündə yerləşir. Dağlıq və dağətəyi landşaft, mineral bulaqlar, dağ gölləri, şəlalələrlə zəngin bölgədə qədim dövrlərdə iri ticarət və sənətkarlıq mərkəzi kimi tanınmış Şəki şəhəri yerləşir. "Yuxarı Baş" Tarix-Memarlıq Qoruğu, Kiş məbədi, İsfahan, Təbriz, Ləzgi karvansaraları, Gələsən-görəsən qalası və b. (Şəki), qədim qalalar (Qax, Zaqatala), Zaqatala DTQ (dövlət təbiət qoruğu), İlisu DTQ (dövlət təbiət qoruğu) və b. bu bölgənin maraqlı turizm obyektlərindəndir. Şəki karvansara hotelləri, "Səadət", "Marxal" istirahət zonaları (Şəki), "Sahil", "Çənlibel" istirahət mərkəzləri, Qafqaz dağ-turist bazaları (Qəbələ), "İlisu", "Şəfa" pansionatları (Qax) və "Gülüstan" turist bazasında (Zaqatala) turistlərə xidmət göstərilir.

## Şamaxı-İsmayıllı turizm bölgəsi

Bakı-Abşeron, Şəki-Zaqatala turizm bölgələri arasında yerləşir. Bakı-Balakən turist marşrutu bu bölgədən keçir. Böyük Qafqaz dağlarının cənub-şərq yamaclarında yerləşən, füsunkar təbiətə malik bölgənin turizm ixtisaslaşması istirahət, idman, dərketmə istiqamətindədir. Şirvan DTQ (dövlət təbiət qoruğu) və MP, Pirqulu DTQ (dövlət təbiət qoruğu) bu bölgədədir. Şamaxıda Cümə məscidi, Gülüstan və Buğurt qalaları, səkkizbucaqlı Şahixəndan (Şaxəndan), Yeddi günbəz, Pirmərdəkan, Diribaba türbələri, Astrofizika Rəsədxanası, İsmayıllıda qədim qalalar, Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğu kimi maraqlı turist obyektləri vardır. Bölgədə 638 yerlik turist yerləşdirmə obyekti fəaliyyət göstərir (2005). “Fortuna” dağ-turist bazası və b. istirahət mərkəzləri açılmışdır.

## Gəncə-Qazax turizm bölgəsi

Azərbaycanın qərbində, Bakı-Qazax turist marşrutunun üstündə yerləşir. Əlverişli iqlim şəraitinə malik dağ-meşə landşaftı, mineral su ehtiyatları ilə zəngin bölgə turizmin inkişafı baxımından perspektivlidir. Nizami Gəncəvinin məqbərəsi, Cümə məscidi, İmamzadə tikililər kompleksi, Şeyx İbrahim məqbərəsi, karvansara və s. Gəncənin maraqlı turizm obyektləridir.

Böyüklüyünə və iqtisadi əhəmiyyətinə görə respublikanın ikinci şəhəri olan Gəncənin cənubunda dəniz səviyyəsindən 1556 m yüksəklikdə yerləşən Göygölün ətrafında Göygöl və Hacıkənd istirahət zonaları, Göygöl DTQ (dövlət təbiət qoruğu) yaradılmışdır. Beynəlxalq əhəmiyyətli Naftalan kurortu bu bölgədə yerləşir. Qazax rayonu tarixi-memarlıq abidələri ilə zəngindir. İbtidai insanların yaşayış məskəni olan Aveydağ mağaraları maraqlı təbiət abidələridir. Mingəçevir şəhərinin yaxınlığında qədim arxeoloji kompleks yerləşir. Şəhərdə

respublika əhəmiyyətli avarçəkmə bazası var. Gəncə şəhərindəki "Gəncə", "Kəpəz" mehmanxanaları və "Lüks" hotelində turistlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Gəncədə Olimpiya idman kompleksi tikilmişdir. Bölgədə idman turizmi inkişaf etdirilir.

## Qarabağ turizm bölgəsi

Azərbaycanın cənub-qərbində, Bakı-Şuşa turist marşrutunun üstündədir. Qarabağ bölgəsində balneoloji Şuşa dağ-iqlim kurortu, Gülablı istirahət zonası, məqbərələr, məscidlər, karvansaralar, qüllələr (Bərdə, Ağdam), Azıx mağarası (Füzuli), Xudafərin körpüləri (Cəbrayıl), Bəsitçay DTQ (dövlət təbiət qoruğu) (Zəngilan), İstisu balneoloji kurortu (Kəlbəcər), "Qalalı" qalası, Göy qala, Cavanşir türbəsi, Laləzar körpüsü (Qubadlı), Ağgöl DTQ (dövlət təbiət qoruğu) və MP (Ağcabədi və Beyləqan) kimi turizm obyektləri var. Dəniz səviyyəsindən 1400 m yüksəklikdə yerləşən Şuşa şəhəri bölgənin əsas turizm mərkəzidir. Alban məbədləri, Şuşa Tarix-Memarlıq Qoruğuna daxil olan qala divarları, Qarabağ xanlarının iqamətgahları, Xurşidbanu Natəvanın ev-muzeyi, Molla Pənah Vaqifin məqbərəsi, Daşaltı uçurumlu dərəsi, Şuşa, Xəzinəqala mağaraları buranın maraqlı tarixi-memarlıq və təbiət abidələridir.

Şuşa sanatoriya-kurort birliyi, "Şəfa" turizm kompleksi, "Qarabağ" mehmanxanası uzun illər turistlərin ixtiyarında olmuşdur. Erməni işğalı zamanı bu obyektlərin əksəriyyəti dağıdılmışdır. İşğal olunmuş ərazilər azad edildikdən sonra bölgənin turizm imkanlarından geniş istifadə olunacaqdır.

## Naxçıvan turizm bölgəsi

Naxçıvan MR-in ərazisini əhatə edir. Türkiyə, İran və Ermənistanla həmsərhəddir. Relyefi, əsasən, dağlıqdır. Naxçıvan şəhəri Qafqazın və Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olduğundan tarixi abidələrlə zəngindir: Mömünə xatın, Gülüstan və Yusif ibn Küseyir türbələri, Qarabağlar Tarix-Memarlıq Kompleksi, Fəzlullah Nəiminin məqbərəsi, məscidlər, "Qızlar bulağı" kompleksi, Əlincə qalası (Culfa), Ordubad Tarix-Mədəniyyət Qoruğu (1977) əvəzsiz turizm obyektləridir. Naxçıvan bölgəsi Badamlı, Sirab, Vayxır kimi mineral bulaqlarla zəngindir. Bölgədə 935 yerlik TYO (turist yerləşdirmə obyekti) fəaliyyət göstərir (2005). Naxçıvan şəhərindəki "Nəqşi Cahan", "Hotel Qrand Naxçıvan", "Qartal" hotellərində turistlərə xidmət göstərilir. Qədim Naxçıvan diyarının mineral suları, memarlıq abidələri, İlandağ, Əshabi-kəhf (Əshabil-kəhf), Nəhəcir, Gəmiqaya kimi nadir relyef formaları, Kültəpə, Qarabulaq nekropolu turistləri bölgəyə cəlb edir. Burada Batabat, Qanlıgöl sahillərində istirahət zonaları yaradılmış, pansionatlar və turist bazaları tikilmişdir. Akademik Həsən Əliyev adına Ordubad MP və Şahbuz DTQ (dövlət təbiət qoruğu) bu bölgədədir. Əlverişli təbii şərait Babək rayonunda mehmanxana şəbəkəsinin, Şahbuz rayonunda sanatoriya-kurort komplekslərinin genişləndirilməsinə imkan yaradır.

## ƏLAVƏ 9

Regionlarımızda formalaşan qədim ənənələri daha yaxşı təqdim etmək, tanıtmaq üçün Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi yeni bir layihəyə - "2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları" proqramına start vermişdir. Bu məqsədlə Gəncə - Azərbaycanın əfsanələr, Qazax - folklor, Şəki - sənətkarlıq paytaxtları elan edilmişdir. Bununla əlaqədar 2010-cu il ərzində nominasiya üzrə, Gəncədə milli mərasim, adət-ənənələr, şifahi xalq yaradıcılığı və milli oyunlar, Qazaxda xalq musiqisi rəqsləri və teatr, Şəki şəhərində isə xalq tətbiqi sənəti, ənənəvi dekorativ-tətbiqi sənəti və milli təsviri sənət ənənələri ilə bağlı silsilə tədbirlər keçiriləcək.

## ƏLAVƏ 10

Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, dəstəklənməsi, xalq yaradıcılığının təbliği və təşviqi istiqamətində aparılan islahatların davamı olaraq milli folklor ustaları və kollektivlərinin, sənətkarların, milli adət-ənənələrin və eyni zamanda, respublikanın şəhər və rayonlarının beynəlxalq səviyyədə tanıdılması, daxili və xarici turizmin inkişafı məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq edilmiş "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramının icrası ilə bağlı 2011-ci il üçün diyarşünaslıq, folklor və sənətkarlıq nominasiyaları üzrə "paytaxt" seçilmək üçün 20-dən artıq şəhər namizədliklərini irəli sürmüşdür.

Təqdim olunmuş təkliflər müvafiq namizəd şəhərlərin ümumi hazırlığı, tarixi ənənələri və digər amillər nəzərə alınmaqla təhlil edilmiş və 2011-ci il üçün Şabran şəhəri "Azərbaycanın Əfsanələr Paytaxtı", Lənkəran şəhəri "Azərbaycanın Folklor Paytaxtı" və İsmayıllı şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan edilmişdir.

Məsələ ilə əlaqədar Şabran, Lənkəran və İsmayıllı şəhərlərində il ərzində nominasiyalara uyğun olaraq təntənəli mərasimlərin, respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfransların, dəyirmi masaların, konsertlərin, müsabiqələrin, festivalların, sərgilərin, yarmarkaların, infoturların və sair tədbirlərin təşkili nəzərdə tutulmuşdur.

# Ədəbiyyat

## Rəsmi sənədlər

**Turizm haqqında** Azərbaycan Respublikasının Qanunu [Mətn]: 4 iyun 1999, № 674 -IQ: [əlavə və dəyişikliklər].- Bakı : Qanun, [2007]. 11, [1] s.

**Azərbaycan Respublikasında 2011-ci** ilin "Turizm ili" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 fevral 2011-ci il [Mətn] //Azərbaycan.- 2011.- 16 fevral.- S. 1.

**Azərbaycan Respublikasının Gənclər**, İdman və Turizm Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 iyul 2001-ci il [Mətn] //Azərbaycan.- 2001.- 10 iyul.- S. 1.

**"Azərbaycan Respublikasında kurortların** 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 6 fevral 2009-cu il [Mətn] //Azərbaycan.- 2009.- 7 fevral.- S. 1.

**Azərbaycan Respublikası Mədəniyyət** və Turizm Nazirliyinin illik hesabatı 2007 [Mətn] /Buraxılışa məsul. F.Qurbanov; Red. V.Quliyev, T.Vəliyev; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi .-Bakı, 2008.-98 s.

**Azərbaycan Respublikası Mədəniyyət** və Turizm nazirliyinin illik hesabati 2008 [Mətn] /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. red. V. Quliyev, T. Vəliyev; burax. məs. F. Qurbanov .-Bakı : Nağıl evi , 2009. 88, [2] s.

**Turizm haqqında Azərbaycan** Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası

Prezidentinin Fərmanı, 15 iyul 2000-ci il [Mətn] //Azərbaycan.- 2000.- 26 iyul.- S. 1.

**Turizm və rekreasiya zonaları** haqqında nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 20 iyun 2008-ci il [Mətn] //Azərbaycan.- 2008.- 22 iyun.- S.3.

## Kitablar

**Ağakərimov, İ.M.** Ekskursiya və ekskursiya rəhbəri [Mətn] /İ.M.Ağakərimov.- Bakı, 2006.- 235 s.

**Azərbaycan:** bələdçi kitab [Mətn] /red. hey.: Rafael Hümbətov və b.- Bakı, 2003.- 256 s.

**Azərbaycan olduğu kimi** [Mətn]: [foto albom] /tərtib ed. V.İsmayılqızı; tərc. C.Hacıyev; elmi məsl. və məsul red. B.Budaqov; Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyi.- Bakı: İsmayıl NPM, 2003.- 73 s.

**Azərbaycan Respublikasının regional** coğrafi problemləri: Qax rayonu [Mətn] /baş red. və ön söz: B.Ə.Budaqov; məsul red.: Ə.V.Məmmədov; AMEA, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu; Şəki Regional Elm Mərkəzi.- Bakı: İsmayıl NPM, 2001.- 80 s.

**Azərbaycan Respublikasının regional** coğrafi problemləri: Qəbələ rayonu [Mətn] /baş red. B.Ə.Budaqov; məsul red.: Ə.V.Məmmədov; AMEA, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu; Şəki Regional Elm Mərkəzi.- Bakı: İsmayıl NPM, 2002.- 80 s.

**Azərbaycan Respublikasının regional** coğrafi problemləri: Oğuz rayonu [Mətn] /baş red. B.Ə.Budaqov; məsul red. N.H.Əyyubov; AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu; Şəki Regional Elm Mərkəzi.- Bakı: İsmayıl NPM, 2001.- 88 s.

**Bilalov, B.** Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları [Mətn] /B.Ə.Bilalov, C.Məmmədov.- Bakı: Mütərcim, 2004.- 168 s.

**Bilalov, B.** Turizm fəaliyyətinin tənzimlənməsi [Mətn]: dərs vəsaiti /B.Bilalov; elmi red. H.B.Soltanova; elmi məsl. A.M.Qasımov; rəyçilər: C.A.Məmmədov, S.H.Rəhimov.- Bakı: Mütərcim, 2006.- 275 s.

**Qurbanov, F.** Azərbaycanda turizmin inkişaf problemləri [Mətn] /F. İ. Qurbanov; elmi red. Ş. M. Muradov; elmi məsləhətçi. R. R. Quliyev; AMEA İqtisadiyyat İn-tu .- Bakı :Adiloğlu ,2007.

**Bilalov, B.** Turizmin menecmenti [Mətn]: dərs vəsaiti /B.Ə.Bilalov; elmi red. C.A.Məmmədov.- Bakı: Mütərcim, 2005.- 372 s.

**Dərgahov, V.** Azərbaycanın Xəzər sahili rekreasiya-turizm ehtiyatları [Mətn] /V.S.Dərgahov; red. A.H.Salmanov.- Bakı: Sabah, 2003.- 132 s.

**Əliquliyev, V**. Piyada turizm [Mətn] /V.Əliquliyev.- Bakı: Azərnəşr, 1990.- 104 s.

**Əlirzayev, Ə.** Turizmin inkişafının sosial-iqtisadi problemləri [Mətn] /Ə.Əlirzayev, S.Aslanova; rəyçilər: H.B.Allahverdiyev, S.Yaqubov.- Bakı: Adiloğlu, 2006.- 164 s.

**Hüseynov, İ.** Turizmin əsasları [Mətn]: dərslik /İ.Hüseynov, N.Əfəndiyeva.- Bakı, 2007.- 442 s.

Məmmədov, C. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları [Mətn] /C. A. Məmmədov, B. Bilalov ; elmi red. F. Qurbanov .-Bakı : Mütərcim , 2004. -209, [3] s.

**Məmmədov, C.** Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları [Mətn] /C. A. Məmmədov, B. Bilalov ; elmi red. F. Qurbanov .-Bakı : Mütərcim , 2004. -209, [3] s.

**Məmmədov, C.** Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti [Mətn] /C.Məmmədov, S.Rəhimov; elmi red. M.M.Fərzəliyev.- Bakı: Qanun, 2000.- 272 s.

**Məmmədov, Q.** Ekologiya və ətraf mühitin mühafizəsi [Mətn] /Qərib Məmmədov, Mahmud Xəlilov; elmi red. B.Ə.Budaqov; foto Rafiq Qəmbərov.- Bakı: Elm, 2005.- 880 s.

**Mingəçevir şəhərinin sosial**-iqtisadi inkişafı proqramı: (2005-2010-cu və 2015-ci illər) [Mətn] /elmi məsl. T.N.Əliyev; red. L.B.Babayev; Mingəçevir Şəhər İcra Hakimiyyəti.- Bakı: Çinar-Çap, 2005.- 158 s.

**Rəhimov, S.** Turizm-ekskursiya işinin təşkili [Mətn]: dərs vəsaiti /S.Rəhimov; elmi red. H.B.Soltanov; rəy. F.L.Nuriyev, T.G.Həsənov.- Bakı: Mütərcim, 2004.- 312 s.

**Zeynallı, Y.** Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarəolunmasının iqtisadi-coğrafi problemləri [Mətn] /Y.Q.Zeynallı; red. B.T.Nəzirova; AEA akad. Q.A.Əliyeva adına Coğrafiya İnstitutu.- Bakı: Tuna, 1999.- 107 s.

* * *

**Mədəniyyət, incəsənət və turizm** haqqında yeni ədəbiyyat [Mətn]:cari biblioqrafik informasiya göstəricisi. Fevral-2011 /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M. F.Axundov ad.Azərb. Milli Kitabxanası; [tərt. ed.Analitik Elektron Məlumat Bazasının Təşkili şöbəsi].-Bakı: M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası, 2011.-105,[1] s.

**Abdullayeva, F.** Azərbaycan Turizm İnstitutunun beş yaşı tamam olur [Mətn] /F.Abdullayeva //Mədəniyyət.- 2011.- 11 fevral.- S.9.

**Abdullayeva, F.** Azərbaycanda qış turizminə maraq artır [Mətn] /F.Abdullayeva //Mədəniyyət.- 2011.- 25 fevral.- S.9.

**Abdullayeva, F.** Xəzərsahili istirahət zonalarında vahid turist paketi [Mətn]: [Qazaxstanın Xəzər sahilində istirahət edənlər üçün vahid turist paketi yaratmaq təklifi haqqında] /F.Abdullayeva //Mədəniyyət. - 2010. - 17 dekabr. - S. 9.

**Abdullayeva, F.** Müalicə turizmi: sağlamlıq və istirahət: Ölkəmizdə turizmin bu növünün inkişafı üçün geniş təbii imkanlar var [Mətn] /F.Abdullayeva //Mədəniyyət.- 2011.- 4 mart.- S. 8.

**Bəşirqızı, Z.** Alternativ turizmin inkişafı müzakirə edilmişdir [Mətn]: [Azərbaycan Turizm İnstitutunda “Alternativ turizmin inkişafı” mövzusunda keçirilən konfrans haqqında] /Z.Bəşirqızı //Xalq qəzeti. - 2010. - 22 dekabr. - S. 4.

**Günay.** Uşaq turizmini necə inkişaf etdirməli? [Mətn] /Günay //Paritet.- 2011.- 22-24 yanvar.- S.12.

**2011-ci il “Turizm ili”dir** [Mətn] //P.S. Elm, təhsil və həyat.- 2011.- 20 yanvar.- S. 5.

**Loğmanoğlu, S.** Azərbaycanda “Turizm ili” start götürdü [Mətn] /S.Loğmanoğlu //Yeni Azərbaycan.- 2011.- 20 yanvar.- S. 3.

**Mehdiyev, T.** Azərbaycanda turizm sahəsinin geniş inkişaf perspektivləri var [Mətn]: [Mədəniyyət və Turizm nazirinin müavini Teymur Mehdiyev ilə söhbət] /T.Mehdiyev //Mədəniyyət. - 2010. - 24 dekabr. - S. 8-9.

**Niftəliyev, E.** Azərbaycan 2011-ci ilin ilk turizm sərgisində uğurla təmsil olunmuşdur [Mətn]: [ilk beynəlxalq turizm yarmarkası haqqında] /E.Niftəliyev //Azərbaycan.- 2011.- 18 yanvar.- S. 8.

**Prezident İlham Əliyev** və xanımı Mehriban Əliyeva Şahdağ Qış-Yay Turizm Kompleksinin 2 nömrəli kanat və xizək enişinin açılışında iştirak etmişlər [Mətn] //Azərbaycan.- 2011.- 1 mart.- S. 1.

**Ramazanov, R.** Atüstü turizm [Mətn]: [Respublika Atçılıq Turizm Mərkəzinin rəhbəri Rafiq Ramazanov ilə söhbət] /R.Ramazanov //Ekran-efir. - 2010. - 3 dekabr. - S. 9.

**Şahdağ Qış-Yay** Turizm kompleksinin ilk kanat yolu və xizək enişi açıldı [Mətn] //Mədəniyyət.- 2011.- 2 mart.- S. 8.

**Turizm** [Mətn] //Azərbaycan Milli Ensiklopediyası: 25 clddə. “Azərbaycan” cildi.- Bakı, 2007.- S.838-842.

**Yunusov, S.** Regionlar: turizm ilə yeni inkişaf dövrü [Mətn]: [regionlarda turizmin inkişaf perspektivləri haqqında] /S.Yunusov //İqtisadiyyat.- 2011.- 11-17 mart.- S. 4.

## Rus dilində

**Азербайджан** [Текст].- Баку: Изд-во «Вокруг Света», 2010.- 262 с.

**Азербайджан**: туристические регионы [Текст] /руков. проекта А.Караев; ред. совет: Т.Мехтиев, А.Исмиев, Х.Гюльалиев, Л.Джеваншир.- Баку, 2005.- 134 с.

**Безрукова, Н.Л.** Круизный рынок: современное состояние и развитие [Текст]: учебно-методическое пособие /Н.Л.Безрукова; рец. А.С.Безряднова, Е.В.Слепенкова.- Москва: Финансы и статистика: Инфра-М., 2010.-158, [2] с.

**Вавилова, Е.В.** Основы международного туризма [Текст]: учеб. пособие для студентов, обучающихся по спец. 060600 “Мировая экономика” /Е.В.Вавилова; рец. В.А.Михалкин, О.К.Куропятник.- Москва: Гердарики, 2005.-159 с.

**Воронкова, Л. П.** История туризма и гостеприимства [Текст]: учебное пособие /Л.П.Воронкова; рецензенты: В.А.Маслов, В.С.Сенин, Ю.В.Забаев.- Москва: ГРАНД: Фаир-Пресс, 2004.- 302, [2] с.

**География туризма** [Текст]: учебное пособ /М.В.Асташкина, О.Н.Козырева, А.С.Кусков, А.А.Санинская.- Москва: Альфа-М: ИНФРА-М, 2011.- 430 с.

**Добро пожаловать** в Азербайджан [Текст] /руков. проекта А.Караев; ред.: Р.Гумбатов, М.Алиева, Д.Гусейнов, Н.Мамедов; дизайн Н.Новрузов.- Баку: AzerOlympic İnternational company, 2006.- 126 с.

**Еганлы, С.Т.** Международный туризм и развитие туризма в Азербайджанской Республике [Текст] /С.Т.Еганлы, Э.М.Гаджиев.- Баку, 2003.- 156 с.

**Мамедов, А.** Туристскими тропами Азербайджана [Текст] /А.Мамедов.- Баку: Азернешр, 1988.- 127 с.

**Соколова, М. В.** История туризма [Текст]: учебное пособие для студентов высших учебных заведений /М.В.Соколова; рец. Н.О.Шенгелия, А.А.Федулин; ред. Е.А.Левицка.- Москва: Академия, 2010.- 350 с.

**Черныш, И.В.** Походная энциклопедия путешественника [Текст] /И.В.Черныш.- Москва: ГРАНД: ФАИР-пресс, 2006.- 448 с.

## İngilis dilində

**A Hedonist's Guide** to Baku [Tekst] /writ. by: Ben Illis.- United Kingdom, 2010.- 190 s.

**Azerbaijan**: culture smart [Tekst].- Great Britain, 2011.- 168 s.

## İnternetdə

www.anl.az/down/meqale/medeniyyet
www.az.wikipedia.org
www.azerbaijan.az
www.azerbaijan.tourism.az
www.mct.gov.az
www.tourism.edu.az

## *Mündəricat*

Giriş ............................................................................. 3
Azərbaycanda turizmin tarixinə qısa baxış......................... 5
Turizmin inkişaf tendensiyası bu gün ................................. 10
Turizmin kitabxanalarda təbliği ......................................... 16
Əlavələr………………………………..……………… 33
Ədəbiyyat ……………..……………………………….. 94

# Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu

*Metodik tövsiyələr*

***Nəşriyyat redaktoru və korrektor:*** ***M.Cəfərova***

**Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 29**
**E-mail: contact@anl.az**
**URL: www.anl.az**

**M.F.Axundov adına Azərbaycan**
**Milli Kitabxanasının mətbəəsində**
**ofset üsulu ilə çap olunmuşdur**
**Sifariş 25**
**Çapa imzalanmışdır: 20.07.2011**
**Tirajı: 150**
**Pulsuz**